**EMFİRA ƏRKLİ**



# VƏTƏNİMİN QIZIYAM

**Redaktor: Vidadi Turan Ağdamlı- Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü, şair publisist, Vətən, Azərbaycan bayrağı, Qarabağ Azərbaycandır!, Ulu Öndər, Ali Baş Komandan, Turan yolu, Şərəfli ömür yolu, Həkəri, Qızıl qələm, Vintsas, Ziyadar, Dövrün vətənpərvər şairi, Xalqın nüfuzlu ziyalısı, Xurşidbanu Natəvan, Xəlil Rza Ulutürk, Səməd Vurğun, Bayram Bayramov, Mustafa Museyiboğlu, İlin şairi diplomları ilə mükafatlandırılmışdır. Həkəri qəzetinin şöbə müdürü, Radio FM-in xüsusi müxbiridir. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" medalı və diplomu, "Azərbaycanın fəxri" kuboku və diplomu ilə təltif olunub.**

**Texniki redaktor: Mehri Ağdamlı-şair publisist, İrak-Türkmən Yazıçılar Birliyinin üzvü, Vətən, Azərbaycan bayrağı, Ulu Öndər, Ali Baş Komandan, Ziyadar, Vintsas, Vətənpərvər şair, Qızıl qələm, Dövrün ziyalısı , Vidadi Turan Ağdamlı, Xəlil Rza Ulutürk, Səməd Vurğun, Vidadi-70 fəxri diplomların mükafatçısıdır. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" medalı və diplomu, "Azərbaycanın fəxri" kuboku və diplomu ilə təltif olunub.**

**Korrektor: Təranə Tunar-şair publisist, Heydər Əliyev, Bayram Bayramov, Xurşidbanu Natəvan, Vidadi-70, Vintsas, Ziyadar, Vidadi Turan Ağdamlı, İlin şairi diplomları ilə təltif olunub.**

**Dizayner: Fariz Məhərrəmov**

**"Vətənimin qızıyam" şeirlər kitabı Bakı "Maarif" nəşriyyatı, 2025. xxx səh.**

**İSBN:**

# MÜƏLLİF HAQQINDA

Tağıyeva Emfira Hacıbaba qızı (Emfira Ərkli) 17 fevral 1950-ci ildə Xaçmaz rayonunun Alıc-Qışlaq kəndində ziyalı ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Konserv kombinatında laborant və hesablayıcı vəzifəsində çalışıb. 1969-cu ildə Bakı Yeyinti-Cənaye Texnikumuna daxil olub. Texnikumu bitirdikdən sonra Xaçmaz Taxıl hazırlığı kombinatında hesablama şöbəsinin müdüri işləyib, həm də partkom (ilk partiya təşkilatının katibi) kimi calışıb. Daha sonra Texniki peşə məktəbində ixtisası üzrə istehsalat təlimi ustası kimi işə düzəlib, həm də müəllimlik edərək ilk partiya təşkilat katibi ictimai vəzifəni də daşıyıb. Hələ orta məktəbdə oxuduğu illərdən şeir, poeziya həvəskarı kimi şeiriyyətə qovuşub.

İlk “Ana” şeiri 1970-ci ildə 8 mart qadınlar günü ərəfəsində, rayon qəzeti olan “Dostluq” qəzetində şair Murad Qudyalçaylı tərəfindən və davamlı çap olunub. Şeirləri müxtəlif mətbuat orqanlarında, almanaxlarda, poeziya antologiyalarında işıq üzü görüb. O cümlədən, Bakıda “Şərqin səsi”, “Ziya”, “Elm və Təhsil”, “Yurd”, Qubada “Şəfəq”, Sumqayıtda “Fakt” qəzetlərində, Qubanın “Gülüstan inciləri”, lX-X-XI nəşrlərində, Şabranın “Şabran nəğmələri” almanaxlarında, Bakıda Müşfiq Borçalının “Zirvə” poeziya antologiyasında, “Canım Azərbaycanım”, “Sazlı-sözlü Borçalı”, “Şah dağı”, “Ləlbər dağı”, “Vətənim”, “Zəfər”, “Xarıbülbül”, “Qarabağ Azərbaycandır”, “Turan”, “Rəvan” poeziya çələngi” ədəbi məcmuədə, elmi publisistik məqalələri davamlı çap olunub. Birinci kitabı çap olunması münasibətiylə şair publisist Zaur Ustac ona “Ziyadar” diplomu təqdim edib.

Şair Vidadi Ağdamlının “Gözüm yolda, könlüm səsdə”, “Qələbəyə gedən yol”, “Gəlirik Qarabağ!”, “Kimlərə qaldı dünya”, Nizami Gəncəvinin 880 illiyi”, “Gəlin gedək Ağdama” 3 hissə, “Sirli dünya”, “Hara gedir bu dünya”, “Atalı analı

dünyam", "Tənha çiçək tez solar", "Hər çəməndən bir çiçək", "Xəyallar dünyası", "Zirvəyə gedən yollar", "Dağlarda izim qalıb", "Ömrün baharı" və s. poeziya antologiyalarında da davamlı çap olunub. Emfira xanımın uzun illərdən sonra "Dünyam mənim", "Ana ürəyi", "Tanrım məni unutma" kitabları çap olunub." Vətənimin qızıyam " kitabı Emfira xanımın dördüncü kitabıdır. Emfira xanımın şeirlərində Qarabağ müharibəsindən, şanlı qələbədən, mərd oğullarımızın döyüşlərdə göstərdikləri şücaətlərdən, qəhrəmanlıqlardan bəhs olunur. O, 70 illik yubileyi ilə əlaqədar olaraq AKİVİHİ Rəyasət heyətinin qərarı ilə "Qızıl qələm" və "Ulu öndər" fəxri media mükafatlarına, eləcə də, "Azərbaycan bayrağı", "Abdulla Şaiq", "Xəlil Rza Ulutürk" diplomlarına layiq görülüb. 2025-ci ildə şairənin 75 illik yubleyi ilə əlaqədar olaraq "Yazarlar" jurnalının redaktoru Zaur Ustac tərəfindən "İlin şairi" adlı diplomla təltif olunub. Xaçmaz PİH-i onu davamlı fəaliyyətinə görə fəxri fərmanla təltif etmişdir. Quba Gülüstan elmi ədəbi məclisi də yubilyarı fəxri fərmanla təltif etmişdir. Emfira xanım eyni zamanda "Zəfər", "Xarıbülbül" və "Xurşidbanu Natəvan", media diplomu ilə təltif olunub. Ailəlidir. İki oğlu, bir qızı, yeddi nəvəsi var. Onlardan biri qız nəvəsidi. Biz də hörmətli Emfira xanımı həm yeni mükafaylarla təltif olunması münasibətilə, həm də dördüncü kitabının işıq üzü görəcəyi mübasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**DAİMA UĞURUNUZ OLSUN**
**EMFİRA XANIM**




***Umma səxavəti, səxavətsizdən,***
***Varlıdan dövlətli səxavətlisən.***
***Əzəldən hazirə nazil olandan,***
***Gözləmə mərhəmət, ədalətlisən.***
***Emfira Ərkli***



***Xaçmaz rayon İcra Hakimiyyətinin  başçısı Elnur Rzayev  cənablarının Emfira xanımın 75 illik yubleyi ilə əlaqədar təltifi və hədiyyəsini təqdim edərkən.***



*Quba Dərbənd Gülüstan İrəm məclisinin sədri*
*Şıxməmməd Seyidməmmədov diplom təqdim edərkən*




*Yubley təqdimatı*





## ÖN SÖZ

Mən Emfira xanımın yazıları ilə əvvəlcə onun dövrü mətbuatda nəşr olunan şeirləri ilə tanış oldum. Onun kitablarında vətənpərvərlik, bədii sözə həssas münasibət, sərras bədii təsvir, istedadlı bir şairə olmasından xəbər verirdi. Sonra mətbuatda onun müxtəlif mövzuda şeirləri ilə bağlı bədii-publisist qeydləri ilə tanış oldum. Onun şeirlərində özünəməxsus yazı manerasını, mətnə fərqli yanaşma tərzini müşahidə elədim. Emfira xanımın şeirlərində realizm və romantizm elementləri kəsişir. Onun kitablarında adları çəkilən şəhidlərimiz, Qarabağ müharibəsində şəhid olan yüzlərlə şəhidlərdən bəziləridi. Onların timsalında şairə şəhidlərimizin vətən uğrunda necə qəhramanlıq göstərdiyini, onların vətən deyə ölümün gözünə dik baxaraq şəhidlik zirvəsinə ucaldığını göz yaşları ilə bərabər kitablarına köçürmüşdü. Son vaxtlar müəllifin mətbuatda dərc olunan, ayrı-ayrı ədəbiyyat, incəsənət və mədəniyyət adamları ilə müsahibələrindəki bir çox bədii-publisistik məqamlar da onun bir şairə kimi zaman-zaman püxtələşməsindən xəbər verir. Mən şairənin şeirlərini oxuduqca onun şeriyyət dünyasında tutduğu yolu açıq və aydın gördüm. Mənə elə gəlir ki, sairənin vətən, şəhidlər, qazilər, ana-ata və övlad sevgisiylə, ümumiyyətlə yazdığı seirlər müasir Azərbaycanımın hər bir gənc oxucusuna örnəkdi. Şairə şeirlərini öz dəsti xətti ilə işləmişdir. Emfira xanım şeirlərinin birində Azərbaycan deyərək yazır:

***Doğulanda qucaqda bin tutmayan,***
***Ata deyib nəvazişin duymayan.***
***Bir qarın ac, bir qarın tox yaşayan,***
***Səhər tezdən gedib çörək qazanan,***
***Oğulların var sənin Azərbaycan.!***

*Bayrağını sinəsinə bağlayan,*
*Düşməninə sərhəddə qan udduran.*
*Anasını bir gün də,ac qoymayan,*
*O əllərlə anasın qucaqlayan,*
*Oğunlların var sənin Azərbaycan.!*

*Soyuqda da,istidə də,çırpınan,*
*Udğunanda su yox,tüpürcək udan.*
*Titrək səslə səni sevirəm deyən,*
*Necə lazım düşməndən qisas alan,*
*Oğulların var sənin Azərbaycan.!*

*Leşlərini qalaq-qalaq toplayan,*
*İylənməsin,üstünü torpaqlayan.*
*Onun-bunun artığına qalmayam,*
*Qız-gəlinə göz ucuyla baxmayan,*
*Oğulların var sənin Azərbaycan.!*

Şairə başqa şeirlərinin birində də “ Dərdimi söylə bilim” deyərək yazır:

*Dərdimi söylə mənə,*
*Qəlbim bir az dincəlsin.*
*Fikirlərim tam deyil,*
*Söylə köməyim dəysin.?*

*Cavanlıq ötüb çoxdan,*
*Baxıram bu həyata.*
*Unutmusan deyəsən,*
*Dəstək ollam istəsən.?*

*Gündə bir paltar kimi,*
*Fikirlər təzələnir.*

*Məclislərdə günə-gün,*
*Davranış çözələnir.*

*O qədər gözəllər var,*
*Rəngarənglik sezilir.*
*Masalarda təamlar,*
*Müxtəlif cür düzülür.*

*Sevgidə boşluq varsa,*
*Vur açarın kilidin.*
*Özün itirən zaman,*
*Tulla uzağa getsin.*

Və yaxud başqa bir şerində "Baxsan taleyinə, kədərdi, mənim" deyərək yazır:

*Uzat əllərini tutum əlindən,*
*Sevinc gözlərimdə parlasın mənim.*
*Apar uzaqlara mənim gözümlə,*
*Baxsan taleyimə, kədərdi mənim.*

*Necə sınaqlardan çıxdım, qayıtdım*
*İrəliyə yollar bağlanıb ötdüm.*
*Yatmış o gözəlləri ayıltdım, öpdüm,*
*Baxsan taleyimə, kədərdi mənim.*

*Vaxt gələr bağlanan yollar açılar,*
*Sevinc üstün olar qəmimdən mənim.*
*Qəmlər özləri də dönəcək bir gün,*
*Baxsan taleyimə kədərdi mənim.*

Şairə başqa bir şerində "Nəvələrim əsgərdi" deyərək nəvələrinə həsr etdiyi şerində deyir:

***Alınan torpaqlarda, bir nəvəm keşik çəkir,***
***Biri karantindədi, hazırlığını keçir.***
***Əskərlik bir məktəbdi, qürurla dolub qəlbim.***
***Sağ salamat qayıdın, nəvələr fəxrim mənim.***

***Düşmən nə karədir ki, yaddaşda saxlayın siz.***
***Torpaq dədə babadan, keşiyində durun siz.***
***Qarabağ,İrəvan da,olub bizim qalacaq.***
***Azərbaycan əskərin görən kimi qaçacaq.***

***Çalış nümunəvi ol,səhv buraxma həyatda.***
***Qəhrəman bir əskər ol,göstər özün hər anda.***
***Geri qalma heç kimdən,göstər sən hünərini.***
***Məzuniyyət verəndə,gətir tərifnaməni.***

***Əskər adı ağırdır, onu doğrultmalısan.***
***Səndən sonra gedənə,nümunə olmalısan.***
***Mənim dəyərli balam,çalış Vətəni  yaşat,***
***Nümunəvi bir zabit,şəcərəni də ucalt.***

Şairə başqa bir "Sənin bu halımdan xəbərin varmı" deyərək həyatdan gileylənir:

***Sənin bu halımdan xəbərin varmı.?***
***Qapasam gözümü,aça bilmərəm.***
***Mən elə gündəyəm,  elə haldayam,***
***Acılsa əlin də qaça bilmərəm.***

***Bu dünya gözümdən elə düşüb ki,***
***Baş alıb mən gedim hara bilmirəm.?***
***Ürəyim darıxır səndən ötəri,***
***Elə bil tələyə tora düşmüşəm.***

*Yuxum yoxa çıxıb,çəkilib ərşə,*
*Taleyim yapışıb saman çöpündən.*
*Səhərə gümanım qalmayıb vallah,*
*Zamanın ipindən tuta bilmirəm.*

*Ümüd çırağım da közərib qalıb,*
*Çətin ki, bir daha,alışa yana.*
*Gileyli deyiləm,mən bu bəxtimdən,*
*Zamanla ümüdüm bəxtim oyana.*

*Heç kimin arzusu çiliklənməsin,*
*Hamının taleyi üzünə gülsün.*
*O qədər bu həyat məni ağladıb,*
*Sevinci olanlar gəlsin bölüşsün.*

Emfira xanımın "Vətənimin qızıyam " şeirlər kitabı da mənə elə gəlir ki, çapa gedə bilər. Şairəyə bu yolda uğurlar və növbəti kitablarının çapa hazırlanmasını arzılayıram.

***Vidadi Turan Ağdamlı: Azərbaycan və İraq- Türkmən Yazıçılar Birliyinin üzvü.***



***Xaçmaz «İlham çeşməsi» elmi ədəbi məclis üzvləri.***



*Xaçmaz r-n İH başçısının  şəhid ailələri və oruc əhli üçün təşkil etdiyi iftar süfrəsi*




2019
Peşə məktəbi.


XOCALI





# VƏTƏN SAĞ OLSUN BABA

# ŞƏHİD ANA..

***(Beş oğulu birdən şəhid olan)***

Qoy ruhları şad olsun beş qəhrəman oğulun,
Ana bilirdi hər an zəhmətin nə olduğun.
Vətənə əsgər verdi göndərdi vuruşmağa,
Düşmən əsgərlərini sərhəddən qovlamağa.
Xəbər gəldi beş oğul, beşi də şəhid olub,
Birdən birə beşi də gör necə həlak olub.?
O oğul dərdin çəkdi ,özün dərdin çəkən yox.
Oğulların yoxluğu dözmədi bir dərd oldu,
Günlərin bir günündə,büzüşərək o soldu,
Gedib qəbristanlığa özünə də yer aldı,
Həyat, yaşamaq hissi, anada tamam öldü,
Qəhrəman övladların yanında yataq saldı.
Beş oğulla birlikdə, o da bir şəhid oldu.

***2024***

# SƏNİN AZƏRBAYCAN

Doğulanda qucaqda bin tutmayan,
Ata deyib nəvazişin duymayan.
Bir qarın ac, bir qarın tox yaşayan,
Səhər tezdən gedib çörək qazanan,
Oğulların var sənin Azərbaycan.!

Bayrağını sinəsinə bağlayan,
Düşməninə sərhəddə qan udduran.
Anasını bir gün də,ac qoymayan,
O əllərlə anasın qucaqlayan,
Oğunlların var sənin Azərbaycan.!

Soyuqda da,istidə də,çırpınan,
Udğunanda su yox,tüpürcək udan.
Titrək səslə səni sevirəm deyən,
Necə lazım düşməndən qisas alan,
Oğulların var sənin Azərbaycan.!

Leşlərini qalaq-qalaq toplayan,
İylənməsin,üstünü torpaqlayan.
Onun-bunun artığına qalmayam,
Qız-gəlinə göz ucuyla baxmayan,
Oğulların var sənin Azərbaycan.!

***2023***

## ALLAH BÜTÜN ŞƏHİDLƏRƏ RƏHMƏT ELƏSİN

***(Məkanından asılı olmayaraq)***

Doğulduğum Vətən Azərbaycandır.
Kasıb da, varlı da,hamı insandır.
Qanacaq, mərifət, yaxşı olsa da,
Yaxşını,pisini sezərik əlbət.

Ən yaxşı musiqi,ancaq sazdadır,
Ən gözəl havalar,ancaq yazdadır.
Nə olsun küləklər,yağış qar yağır,
Dinclik,istirahət edərik əlbət.

Rəbbimin istəyi,səni görməyə,
O qulac saçları sənin hörməyə.
Ürəyi qəfəsdə,çırpınır quş tək,
Ruhum uçub gedir,görərik əlbət.

Gözlə tələsmə sən qərar verməyə,
Bu gün gül toplayaq,səhər getməyə.
Şəhid xiyabanın ziyarət edib,
Borcumuz duadır,edərik əlbət.

***2021***

## QƏHRƏMAN OĞULLARIMIZA

Topuna mərmi qoyan,
Güllənin için oyan,
Adını ora yazan,
Oğullar tək bizdədi.

Gündüzləri oynayan,
Ley tək göydə qıy vuran,
Düşməninə şığıyan,
Oğullar tək bizdədi.

Polad kimi igidlər,
İlqar kimi ərənlər,
Qulaqları kəsənlər,
Oğullar tək bizdədi.

Güllə dəyər yıxılmaz,
Savaşanda basılmaz,
Yenildər, amma yenməz,
Oğullar tək bizdədi.

Yaralı qan tökülməz,
Beli heç vaxt bükülməz,
Öldürər amma ölməz,
Oğullar tək bizdədi.

Düşmənini ağladan,
Üzbə üz də vuruşan,
Əlbəyaxa güləşən,
Uşaq, qoca,qadına.
Heç vaxt güllə atmayan,
Oğullar tək bizdədi.

***2021***

## ŞƏHİD VƏ ANA

***(Xaçmaz şəhidi Davud Hacıyeva İthaf olunur!)***
***(Şəhid anasının arzuları, dialoq)***

Həyat qocaltdı məni, qəlbim cavan olsa da,
Müharibə qızışdı, atəş ərşə qalxsa da.
Alovlandı ürəklər, alovlandı saf qəlblər,
Şəhid verdi vətənim, çoxaldı qəlbdə kədər.
Olmayaydı bəd xəbər, sevincim çoxalaydı,
Qələbə sorağıyla səhərim açılaydı.

Rayona şəhid gəlir, yayıldı birdən xəbər,
Sıxıldı qəlbi birdən, yumuldu dərhal gözlər.
Dili, ağzı qurudu, demədi bir kəlmə də,
Ürək çox şey deyirdi, lal olaydı dillər də.

Mafəsini görən tək, əyildi yerə dizlər,
Göz yaşı gildir-gildir, ərşə qalxdı nalələr.
Bilmir neyləsin ana, mafəni qucaqlasın,
Başını ovxalayıb, ayağını axtarsın?

Şəhid:-
-Qarşıla məni anam, gəlmişəm, yanındayam,
Mən vətən övladıyam, ay mənim gözəl anam.

Sevindirə bilmədim, vətəndi öncə.. anam,
Borcumu verdim ona, şəhidlər yanındayam.
Yerimi rahla gəlim, diz üstə başım qoyum,
Bu qalib torpağımda, sonra da məskunlaşım,
Bağışla məni ana, sənə dayaq olmadım.

**Ana:-**
-Yaxşı birrtgv yerə qoyun, tez oğlum inciməsin,
Qonaqdı o bu gecə, istəyir rahatlansın.
Ümüd çırağım Davud, doyunca görəmmədim,
Niyə hər səhər-axşam, sevincini bölmədin...?
Arzulardan söz açıb, sorğu-sual vermədin...?
--Müharibə qoymadı, arzulara çatasan,
Dedim evləndirərəm, tək salamat olasan.
İstədiyin seçərsən, elçiliyə gedərəm,
Evləndirrəm səni mən, gərdəyinə gətirrəm.
Xonçaların  bəzərəm, təamları düzərəm,
Qələbə sorağıyla, bitməyin izləyərəm.
Bir nəvə sorağıyla səbrimi də gözlərəm,
Hər kəsin süfrəsində, qulluğunda gəzərəm.

## VƏTƏN SAĞ OLSUN, BABA

***(Avqust şəhidlərinə)***

Şəhid gəlir deyəndə
Ömrüm yarı bölündü.
Sıxıldı bu ürəyim,
Çırağımız da söndü.
Parçalandı bu qəlbim,
Qanım damarda dondu.
Ayaqlarım qırıldı,

Kədər gözlərə doldu.
Qollar düşdü yanıma,
Başım hərləndi birdən.
Sanki zəhər içmişdim,
Ürəyim durdu birdən.
Halım mənim dəyişdi,
Dözmədi ürəyim də.
Başım fırlanıb düşdü,
O an getdim özümdən.

Maşınıar ard-ardınca,
Şütüyür sürət ilə.
Qonşular dostlar səsə,
Yığışdılar bir yerə
Nədir,bu nə haraydı,
Kaş ölüm olmayaydı.
Balam sağ qayıdaydı,
Allah deyə yalvarır.
Kaş yaralı gələydi,
Qol-qıçı olmayaydı,
Qulağı kar olaydı.
Eşitdikcə ananın,
Ağlayan ah-naləsi,
Atanı ağlar qoyub,
Qurudu bu nəfəsim.
Damarımda dondu qan,
Dərdlərim təzələndi.
Ürəyi xəstə idi,
Ata dözə bilmədi,
Elə orda verdi can.
Apardılar yudular,
Mafəsinə qoydular.

Ata-oğul yan-yana,
Torpağa tapşırdılar.

Balam-balam ay balam,
Dərdinə yandı anan.!
Yolunu gözləməkdən,
Gözlərimə doldu qan.
Ay Allah sən rəhm elə,
Bu nə dərd nə bəladı.?
Oğul mafədə gəlib,
Atasını apardı.
Emfira ərkli.

## HƏSRƏTLƏ...

Səfərbər olunmuş oğul, ananın,
Bir an qucağında yumdu gözünü.

Niskilli ana da, bərk qucaqlayıb,
Bağrına basaraq, öpdü üzünü.

Silib göz yaşını dedi anacan!
-Kişilik məktəbin keçməliyəm mən.
Düşməni yerində oturtmaq üçün,
Döyüş taktikasın bilməliyəm mən.

Ana yola salır, doğma balasın,
Əmanətsən deyir, vətənə oğul!
Dürüst ol düşmənə göstər gücünü,
Verdiyin sözünə əməl et oğul!

Kənardan baxanlar göz yaşlarıyla,
İzləyir ananı, onun oğlunu.

Bir ana oğlunu əsgər yollayır,
Gözləyir digəri, igid yolunu.

## AXIR NƏFƏSİNDƏ ANAYLA SÖHBƏT

(*Yardımlı şəhidi Amal Alışanlıya ithaf!)*

Dərdim vətən dərdi mənim,
Mən orduya yazılmışam.
Yardımlıdı obam-elim,
Vətənimçün vuruşmuşam.
Adım Amal Alışanlı,
Düşmənlərə dağ çəkmişəm.

Bir gülləyə alıb canın,
Soysuzları pərt etmişəm.
Yaşamaq da çox gözəldir,
Vuruşmaq ondan özəldir.

Şəhid oldum ana.. canım,
Torpağa töküldü qanım.
Haqq yoludur bu yolumuz,
Şanlıdı bizim ordumuz.

Dağ döşündə topladığın,
Gülləri dərərsən ana!
Hər şəhidin məzarına
Gülləri düzərsən ana!

## AZƏRBAYCANI QORUYAQ.!

Ana Vətən,
doğma torpaq,
Tarixlərə yazılıbdı adın sənin.!
Mən qoynunda göz açmışam.!
Yaşamışam,təhsilimi artırmışam !
Kövrəlmişəm,ağlamışam,
həm dolmuşam,boşalmışam.!
Vətənimə bağlanmışam.!

Düşünməyək
qonağıq biz,
bu dünyada.
Düşünməyək
köçkünük var
bu həyatda.
Bərəkətli
torpaqlara
göz yummayaq,
Müalicəvi
bulaqları
biz qoruyaq.
Sağlığında
insanlara
qiymət verək.***(C.Novruz)***
Bir tərəfli düşünməyək,
uzaq görənlik
eyləyək.
Düşmənlə üz-üzə durub,
Vətənə də sahib çıxaq.
Biganəlik yaraşmayır
millətimə.

Qalx ayağa,
car çəkərək söyləyək biz,
Azərbaycan Vətənimdi,
varlığımdı.
Onu qorumaq
borcumdu.!
Əlləş,
vuruş,
qurub,
yarat,
Qoy sənin də zəhmətlərin
tarixlərə bir görk olsun.!
Gözəl Vətən,gözəl xalqım
can millətim.
Ana dilini qoruyaq,
nəsillərə müşdə qoyaq.
Doğranmasın ana dilim
dilim-dilim.
Nəsillərə biz paylaşaq
şirinliyin.!
Ana..,
ana Vətən,
ana torpaq,.
kövrəkliyin.
Çox şirinsən.
Ey Vətənim.!
Ana dilim.!
Övladları..
o ananı,
ocağını,
Vətənini,
torpağını,
biz qoruyaq!

Yumruqları zindana da
        birgə vuraq.!
Düşüncəylə
        irsimizi biz qoruyaq .!
Həm savaşaq,
        Həm dalaşaq,
                Həm yaşadaq.!
Ana dilin biz  qoruyaq.!
Ana dilin biz qoruyaq.!

***2025***

## ŞƏHİD NURAN TAPŞIRALANDA  TORPAĞA

***(Şəhid Nuran Mirzəyevin əziz xatirəsinə həsr olunur!)***

Düzəmlədi köynəyinin yaxasını,
Musiqiylə yola saldı balasını.
Nəsihəti, sözləri qaldı yanında,
Yanağında izi qaldı bacının da.

Kasıblıqla böyümüşdü bu uşaqlar,
Öz xoşlarıyla döyüşə yollandılar.
Anası yazıq oğlunu ağlayırdı,
“Qımıl” kənddə ürəyini dağlayırdı,

Döyüşlərə göndərdiyi balasını,
Sağ gəlsəydi, sarıqlardı yarasını!

Güllə-çiçəklə bəzədildi yolları,
Ərşə qalxdı ah-nalələrin qolları,
Bir igidin nəşi də medallarıyla,
Sipər olmuşdu sinəsi oğulların.

Qəhərləndi əzizləri, sirdaşı da,
Qohum-qonşu, mərasimdə olanı da,
Ağlayırdı böyük-kiçik doğması da,
Şəhid Nuran tapşırılanda torpağa.

## BİR MİLLƏT İKİ DÖVLƏT

***(Başın sağ olsun)***

Dərdimizə məlhəm etdin,
Şər başından vurdu sənin.
Xeyir əməllər eylədin,
Dağıtdılar yurdun sənin.

Göz yaşları axıtdılar,
Xocalıda ölənlərin.
Param-parça oldu qəlbi,
Bir millət iki dövlətin.

Türkiyəylə Azərbaycan,
Qardaşlığın qısqandılar.
O xeyirxah olan qəlbi,
Dırnaq ilə qopartılar.

Yarana məlhəm qoyarıq,
Sən heç darıxma qardaşım.
Düşmənə qalib olaraq,
Əl-ələ tutub çıxarıq,
Qoy gəlsin zaman, dərd daşım.

***2023***

# ŞƏHİD OLSAM SEVİNƏRƏM!

***(Şəhid Yaşar Xuduyevin əziz xatirəsinə həsr olunur!)***

Qubanın Dağlı kəndindən,
Quba komisarlığından.
Həqiqi hərbi xidmətə,
Yola düşdü şəhid Yaşar.

Goranboyun Ballı qaya,
Ərazisində yerləşən.
Hərbi hissədə and içdi,
XTQ-ə ərizə verdi.

Gecə ilə Murovdağda,
Güclü döyüşlər başladı.
Əsgər, gizir, zabitləri,
Komandir birgə topladı.

Qorxmayaraq vuruşdular,
Düşmən ilə üzbəüzə.
Qan su yerinə axırdı,
Qanları çıxmışdı dizə.

Nə gecəsi, nə gündüzü,
Nə yeməyi, suyu vardı.
Tək gülləsi pulemyotu,
Dayanmadan atılardı.

Döyüşlərə qatıldılar,
Silahlara sarıldılar.
Düşmənləri ərazidən,
İti qovan tək qovdular.

Can vətənim səninlə mən,
Həlak olsam fəxr edərəm.
Elə güclü, qüdrətlisən,
Şəhid olsam sevinərəm!

## FARS REJİMİ TAXTIN UÇSUN BAŞINA

Qan qardaşım bu gün əziyyətdədi,
Təminatları nə vəziyyətdədir?
Qış kəsdirib qapısın, bacasını,
Sinəsində körpə uşaq mələşir,
Ac qarınla axşamacan əlləşir.

Şaxta keçir sümüyə, iliyinə,
Baxan varmı çayına, çörəyinə?
Uşaqların çəkməsi, geyiminə,
Donacaqlar çatmasalar dadına,
Bu rejimin, kül olubdu başına.

Çöl-biyaban ailələr dolaşır,
Xaxaları bir-biriylə kəlləşir,
Əməlləri baxırsan ki, göz deşir.
Fars rejimi kül olubdu başına,
Ay qansızlar, taxtın uçsun başına.

***2023***



# AY, GÜNÜM, İLİM

## KƏDƏRDİ MƏNİM

Uzat əllərini tutum əlindən,
Sevinc gözlərimdə parlasın mənim.
Apar uzaqlara mənim gözümlə,
Baxsan taleyimə, kədərdi mənim.

Necə sınaqlardan çıxdım,qayıtdım
İrəliyə yollar bağlanıb ötdüm.
Yatmış o gözəlləri ayıltdım,öpdüm,
Baxsan taleyimə, kədərdi mənim.

Vaxt gələr bağlanan yollar açılar,
Sevinc üstün olar qəmimdən mənim.
Qəmlər özləri də dönəcək bir gün,
Baxsan taleyimə kədərdi mənim.

***2024***

## OLMASA SAF MƏHƏBBƏT

Ağlama sən həyatım,
Göz yaşın silən olmaz.
Dərdi-sər o qədər ki,
Silməyə qələm çatmaz.

Gah qələmin qırılar,
Gah  da əlin yorular.
Kağız sürüşər, o an,
Yazın da ki, pozular.

Gör necə dəyişibdir,
İnsan, həyat, kainat,

Allahım istəməsə
Onda olmaz səadət.

Tək deyilik həyatda,
Lap olmasın heç kimin.
Başın üstdə Allahın,
Yerdə sən, bir də varın?

Təklik Allaha məxsus,
Sən heç düşünmə bunu.
Tək deyil bir kimsə də,
Həkk elə beynə bunu.

Harda hörmət olacaq,
Orda səadət, dövlət.
Qarşılıq olmaz heç vaxt,
Olmasa  saf məhəbbət.

## YANANIM VARMI.?

Qəmin dağılası bir gün olarmı?
Eşq oduna yanan söylə de varmı.?
Qəlbin çilik-çilik olubdur sənin,
De görüm yaranı sarıyan varmı.?

Qurban olum səndəki o qeyrətə.
Qeyrətini ucuz satma şöhrətə.
Sərvətə meyl etmə düşər diqqətə.
De görüm yaranı sarıyan varmı.?

Ömür vəfa etsə, qulunam sənin.
Nə olar əhv elə, Allahım mənim.

Hər əmrinə müntəzirəm mən sənin,
De görüm yaranı sarıyan varmı.?

***2023***

## RUHUMA MƏNİM

Ümüd dolu baxışların,
Zillənib ruhuma mənim.
Divarda asılıb əksim,
Görmürsən çıxmayır səsim.?
Ruhum orda,getmir durub,
Pərvaz edir ətrafımda.
Sanki mənə ölmə deyir,
Dayanmışam qulluğunda.
Əllərim nəsə söyləyir,
Nəzərləriylə söz də çəkir.
Dayanım mən,yoxsa gedim,
Sanki mənə nəsə deyir.

***2023***

## BU QƏLBİMDƏ PAYIN VAR

Elə bilirsən ki, mən, dərdindən öləcəyəm?
Hər an səni axtarıb, bir gün izləyəcəyəm?
Ürəyimi sındırıb, soruşmursan nə olub?
Niyə belə deyinir, niyə, qəmli nə olub?

Sənli günlərin qədrin bilmədin ki, sormursan?
Yan-yörənə baxırsan, məni orda görmürsən?
Nə vaxtadək mən deyib, sən deyib axtaracam?
Sənin halın necədir, haçanacan soracam?

Bəyəm insan deyiləm, niyə məni sormursan?
Görmək də istəmirsən, hardayam axtarmırsan?
Gecələri sübhədək yummayıram gözümü,
Gözləyirəm bir zaman mən də deyim sözümü.

İstəyirəm  çalasan, zəng səsiylə qol açam,
Şıdırğı bir mahnıda mən doyunca oynayam,
Mən sənin, sən də mənim, sorağında olmayam.
Eh, dünya, etibarsız, sən də davamçısısan.

Qəlbin açarlarını sən nə vaxt açacaqsan?
Cingiltiyə qıfılın, açarları durubdu.
Gözləyir səbirsizcə, nə vaxt açılacaqdır?
Bu ürək daşdan deyil, palçıq deyil yapasan.

Sən nə vaxt ayılacaq, qəlbimi alacaqsan?
Axı burda sənin də, mənim də bir payım var,
Borcumuz o qədərdi, onda haqqı sayım var.
İllər keçir, qocalır, gün yetməyir ay insan,
Ayıl sən nəhayətdə, bu qəlbimdə payın var.

## MƏNİ BAĞIŞLA

Nə yatmısan artıq bəsdi oyan sən,
Son dəfədir görüşümüz bilirsən.
Bir qırpımda incə telimi üzsən,
Mən xətrinə dəysəm, məni bağışla!

Nə gözəl hisslərdir, sevib-sevilmək,
Simanda sevgidən, işartı görmək.
O solğun baxışla, sonudu demək,
Çox çətindi, sındırmıram özümü.

Səmimiyəm söyləyərəm sözümü,
Fikir etmə dərdim,məni bağışla.!

Nə yuxu girdi mənim gözümə,
Nə sən gəl bu ürəyimi üzmə.
Ərköyünəm sən sözümdən incimə,
Darıxmışam səni görmək arzuma,
Qarşı çıxma inan mən üzülürəm,
Son nəfəsdi ölsəm məni bağışla.!

EMFİRA demədi güclə sev məni,
Sevdin sevəmmədin,demə sev məni.
Biganəlik məhv eləyibdir məni,
Vallah bəs eyləyər, sevsən sən məni.
Qovla kədərini, sevgini saxla,
Əlvida deməyim,məni bağışla.!

***2021***

## AY, GÜNÜM, İLİM

Gəlmək istəyəndə, mən hara gəlim,
Mən necə söyləyim tək sənsən gülüm.
Sevgin ürəyimdə kükrəyən dəniz,
Fırtınam,qasırğam, ay, günüm, ilim.

Sevgin qövr eyləyir damarda,qanda,
Səni yaşadıram, hər çətin anda.
Xəyallar uzağa aparır məni,
Taqətim tükənib daha bu canda.

Həyat şirin, bəzən acı olsa da,
Gün keçib,ay keçib,illər solsa da.

O görüş yerimiz elə haylayır,
Bir acı xatirə ondan qalsa da.

*2022*

## SƏNİN XƏYALINDAYAM

Bu dünya bir pəncərə,
Çoxdur gəlib-gedəni.
Bu qəlbim arzulayır,
Ürəyimcə sevəni.

Dərd-qəm nədi, bilməyib,
Qəlbimi dinləyəsən.
Soruşasan ay insan,
Nə yeyib, nə içibşən?

Dərdli bir insan kimi,
Dərdimi dinləyəsən.
Heç bilmək istəmərəm,
Nə qədər biganəsən?

Mənə çox maraqlısan,
İlk gündən, lap əzəldən.
Çəkilib bir xəlvətə,
Dinlədəsən qəzəldən.

Atılasan, düşəsən,
Oynayasan, güləsən.
Sevincdən nəşələnib,
Yuxuna çəkiləsən.

İslanmışın yağışdan,
Nə qorxusu, hürküsü,?

Sökülüb meşələr də,
Yox çaqqalı, tülküsü.

Nə dost qalıb, nə tanış,
Nə bacı, nə qardaşım.
Darıxanda getməyə,
Yoxdur heç bir sirdaşım.

Sil gözünün yaşını,
Hər zaman yanındayam.
Qəmli keçməsin günün,
Sənin  xəyalındayam.

## VURULDUM

Qələmimlə cızdım səni,
Ürəyimə yazdım səni.
Hər an arzuladım səni,
Kipriyinə vuruldum.

Həyatıma bağlısan sən,
Xəyallarda arzusan sən.
Davranışla varlısan sən,
Qaş-gözünə vuruldum.

Bir könüldən min könülə,
Qəlbindəki ürəyinə.
Həm arzuna diləyinə,
Yerişinə vuruldum.

Gəzdiyin el-obaların,
Göllərdəki sonaların.

Sorğına durnaların,
Süzməyinə vuruldum.

***2024***

## CANANIM

Dilin şəkkər-şərbətdir,
Dodaqların bal kimi.
Unutmaram mən səni,
Yerişin maral kimi.
Gözəlliyin bərq vurur,

Nur saçır almaz kimi.
Baxışların can alır,
Göydəki ulduz kimi.
O qədər gözəlsən ki,
Simada qaş-göz kimi.

Gözlərin par-par yanır,
Manqaldakı köz kimi.
Yamanca ürkəksən sən
Qaçırsan ceyran kimi.
Başımın tacısan sən,
Sevirəm aşiq kimi.

***2021***

## QƏLBİMDƏ YAŞAYIRSAN

Sən mənim qələmimin ucunda yaşayırsan.
Sən mənim bu köksümdə, sinəmdə yaşayırsan.
Hər vərəqim səninlə, həm dolur həm boşalır.
Bu dilimdən süzülən, sözlərdə yaşayırsan.

Bəlkə gündə min dəfə, xəyalınla gəzirəm.
Bütün niskillərimi, mən səninlə bölürəm.
Baxışlarım gözündə, həsrətlə seyr edirəm.
Unudulmaz sevginlə,misramda yaşayırsan.

Ümüd dolu baxışlar,yollarına dikilib,
O yolları arayıb,qovuşmaq istəyirəm.
Sən mənim ürəyimdə,açılmaz bir dünyamsan,
O dünyam da ümüdlü,qəlbimdə yaşayırsan.

Ayaqlaş söyləyirdim, peşiman olmayasan,
İstəmirəm ömründə, sən niskil daşıyasan.
Artıq hər şey ötüşüb, ümüdlər də doğrulub,
Qərib yollar uzaqda, qəlbimdə yaşayırsan.

***2018***

## SEVİRƏM DEMƏ

Eşqi məhəbbəti ucuz sanıb sən,
Hər yetən birinə sevirəm demə.
Can demə canından,olar o canın,
Məhəbbət köz deyil yanasan dəmə.
Bir də çalış heç vaxt sevirəm demə.

Bu qədər əzaba dözməyin nədi,
Kaş sənin əlindən tuta biləydim.
Eşqi məhəbbəti oyuncaq sayıb,
Hər yoldan keçənə, sevirəm demə.

Əyilmə qanmazla, axmaq yanında,
Heç zaman  hər kəsə sevirəm demə.
Sevgi müqəddəsdi yansan oduna,
Sevirəm sözünə aldanma,demə.

Məhəbbət düşübsə o ürəyinə,
Onu ucuz tutma, sən sal qəlbinə.
Çalış sən  birinci sevirəm demə.

Əhdə vəfa çıxsan heç bilmək olmaz,
Eşqin qəmə(dən) çıxıb doğrayar səni.
Bu qədər özünə heç  güvənmə sən,
Məhəbbət qılınc tək şaqqalar səni.
Hər yoldan ötənə sevirəm demə.

***2024***

## YAŞLA DOLMASIN

Arzuların ürəyində qalmasın,
Ümüdlərin gözü yaşla dolmasın.
Gül-çiçəklər açılanda solmasın,
Axı dünya hamımızın deyilmi?

Qəlbinizdə qoy sevgilər boy atsın.
Güzarana çalar qatsın boyatsın.
Qoy hər kəsi azan səsi oyatsın,
Axı dünya hamımızın deyilmi.?

Qız köçürən hər bir ana şad olsun,
Sevinc artsın,kədər bitdin,yad olsun.
Hər bir kəsəqalan yaxşı ad olsun,
Axı dünya hamımızın deyilmi.?

***2019***

## GÖRÜŞƏK

Bir vaxt elə, sənlə bir də görüşək,
Üz-üzə oturub, bir də dərdləşək.

İçindən gələni söylə sən mənə,
Dilim də deyəcək doğrusun sənə.

Vəfalı dost kimi, görüşək bir də,
Sevinci bölüşək, verməyək qəmə,
Qəlbini zəpt edib, çıxıb gedənə,
Yer vermə, sonra da, yönəlmə mənə.

Yadına düşürmü ilk görüşümüz,
Birdən birə çəp gəlmişdi sözümüz?
Sən dedin, dinlədim, gözlədim görək,
Mən boyu bəstəyəm, sən enli kürək.

Toqqaşa bilmədi, çənli gözümüz,
Dərdli baxışımız, qəmli üzümüz,
Gözlər yol çəkirdi, durub ikimiz,
Deyə bilmədik ki, nədi cözümmüz?

Gör neçə vaxt idi, biz görüşmədik,
Nələr çəkmişiksə, heç bölüşmədik.
İndi rast gəlmişik, sözlər çəp gəlib,
Nələrə əl atdıq, çözə bilmədik.

Söhbət elədikcə söz-sözə gəldik,
Uzandı yolumuz, səmti dəyişdik,
Dərdləri unudub göz-gözə gəldik,
Həll etmək istədik, edə bilmədik.

Bir vaxt elə, sənlə bir də görüşək,
Doğru yalan söhbətləşək, dəyişək.
Bəlkə anlaşarıq yenidən sənlə,
Barışa bilməsən, dalaşma mənlə.

## NEYLƏYƏRSƏN.?

**DEDİ:**
-Eşçqim tükənəndə,
Sevdim mən səni.
Səpdim saçlarıma dən,
Bəyaz dəni.

**DEDİM:**
-Sevgi tükənərmi ay ürəksizim?
Yoxmu deyiləcək ayrı bir sözün

**DEDİ:**
-Mən razı olsam da, ay vəfasızım.
Sevgisiz dünyada olarmı dözüm?

***2022***

## GÖZLƏR QƏLBİN AYNASIDIR

İşıq saçar hər bir yana gözündən,
Danışanda nur tökülər üzündən.
Söz sərrafı tez bilinər sözündən.
Gözlər qəlbin aynasıdır əzizim.

Ard-ardınca sınaqlardan keçənlər,
Hər bulaqdan bir qurtum su içənlər.
Çətin anda tükü-tükdəm seçənlər,
Elin yurdun simasıdır,əzizim.

Hamı bilir,balıq başdan iylənir,
Arsız adam,hər gün içir əylənir.
Xain olan öz-özünə küylənir,
Belə həyat mənadızdır əzizim.

***2024***

## DƏRDİ BÖLÜM SƏNİNLƏ

Siyasətə qurşanıb,təbimi itirmişəm.
Görəndə qan-qadalar, özümü yetirmişəm.

Gəzirəm özüm deyil,düşündüm ki,bitirdim,
Dərdim dağlar qədərdir,deyəsən yük götürdüm.

Ağlaram dərd əlindən,ağlama dərdimə sən,
Göz yaşım sel tək axır,dəryasında üzdüm mən.

Nə səbr var nə dözüm,o qədər qapanmışam,
Səni unutmaq üçün,fikirlərdə çaşmışam.

Tapmadım çıxış yolu,desəm qolu zorluyam,
Kölgəmdən də qaçıram,inan yolu bağlıyam.

***2022***

## UNUTMA

Kaman kimi qaşları,
Ox kimi baxışları.
Necə unudum axı,
Aşiqəmsə hüsnünə.

İsmətini görmüşəm,
Dəyərini vermişəm.
Yollarında  durmuşam,
Yaraşıqsan elimə.

Məhəbbətin inci, dur,
Gözəlliyin bumudur.?

Qəlbim səni unudur,
Gör ürək necə susur,
Sən edəndə kin mənə.?

***2018***

## ELƏ DARIXMIŞAM

Elə darıxmışam səni görməyə,
O əsmər saçları,burub hörməyə.
Qınayan olmasa,hər saat hər an,
Gələrdim yanına könül verməyə.

Ölməyə hazıram sənin yolunda,
Görünmür axırı sonu  yolun da.
Həsrətin acısı bitmir ki,bitmir,
Gəl desən yetişim mən həmin anda.

***2020***

## UNUTMADIM DƏRDİN ALIM

Unutmadım mən heç səni,
Amma unutdun sən məni.
Ömürdən gəlib keçəni,
Yada salma dərdin alım.

Yaxşı günün ömrü azdır,
Pis anların oyaq qazdı.
Yazanlar da elə yazdı,
Gözünü sil dərdin alım.

Nə alırsan,nə verirsən,
Hər bir yerdə seçilirsən.
Ürəyimi qəlbimi sən,
Unutma gəl dərdin alım.

Çox yalanlar üzə çıxır,
Suyu süzə düzə çıxır.
Birdən gəlib yüzə çıxır.
Eşitmisən dərdin alım.?!

Elə yaşa,elə yaşat,
Düşmənini tanı daş at.
Dost tanışına hər saat,
Doğru söylə dərdin alım.

***2023***

## CANANIMA VURULDUM

Heç bilmədən bir canana vuruldum.
Dərdi-səri an keçmədi unutdum.
O qaş-gözə gözəlliyə vuruldum,
Məftun etdi....mən özümü unutdum.

Mayak kimi parıldadı gözüm də,
Qara gözlər başın əydi önümdə.
Baxışları od püskürdü,sözü də,
Məftun etdi...mən özümü unutdum.

Dözməyərək yaxınlaşdım bir anlıq,
Sevir-sevmir qoy söyləsin bir anlıq.
Yanağından bircə öpüş bir anlıq,
Məftun etdi... mən özümü unutdum.

***2024***

# GÖZÜM GÖZÜNDƏ QALIB

Gözlərin gözümə dəymir nə vaxtdı,
Ayrılıb getdiyin həmin o andan.
Bu qədər unutqan olma əzizim,
Çıxmayıb gözlərin mənim yadımdan.

Baxışın duruşun önümdən getmir,
Hər zaman axtarır, arayır,bitmir.
Saralır günbəgün gözümün ağı,
Qarasın ağarda gözləyir dönmür.

Səni düşündükcə möhtacdı ürək,
Hər şirin sözün də,fikrimdə gerçək.
Rəngim də qaralır,simam dəyişir,
Çırpınır qəlbim də,arzusu görmək.

Vaxtı münasib bil,ara hər zaman,
Məni tərk eyləmə unutma,aman.
Yanımdan o keçən gəlib-gedəndən,
Tez-tez soruşuram,söylə a insan.

Unutma yad elə, sevirəm səni,
Gülüşün önümdə, yad edir məni.?
Şəhidlik zirvəsi uca məqamdı,
Ucalan igid cox,qorusun səni.

Soy kökün yox elə,dağıt tufaqın.
Parçala sinəsin,sındır ayağın.
Kəs soysuz başını,axıt sən qanın,
Qəhrəman oğullar kəssin qulağın.

Bu torpaq onlara igid...haramdı,
Şəhid olmaq olar,ucalan candı.
Qovub sərhədlərdən mənfir düşməni,
Qoruyun sərhəddi,igid məqamdı.

***2022***

## BİLMİRƏM AXI.?

Mənə gəmi verin keçim o taya,
Ləpələr çırpınır,səslənir qaya.
O qədər gözəl var,gəlmirlər saya,
Mən sənsiz yaşaya bilmərəm daha.

Gecəm gündüz olub,uya bilmirəm,
Mən sənsiz özümü duya bilmirəm.
Dərdimi heç kimə deyə bilmirəm,
Mən sənsiz yaşaya bilmirəm daha.

Saxladın sirrini açmadın mənə,
Duyğulu qəlbinlə,söylə dərdin nə.?
Eyləmə sən bəyan, gəlib-gedənə,
Mən sənsiz yaşaya bilmirəm daha.

Qohum-qardaş gətiriblər qoyunu,
El-aləm tanıyır,kökün-soyunu
Gəl nişan eylə sən,həm də toyunu,
Mən sənsiz yaşaya bilmirəm daha.

***2020***

## UNUTMARAM UNUTSAN DA

Gözlərinə dönüm sənin,
Gəl üzmə qəlbimi mənim.

Unut desən ay sevənim,
Unutmaram,unutsan da.

Ürəyimin başı qandı,
Yarın,yarım ilə təndi.
Göz yaşım vallah dən-dəndi,
Unutmaram, unutsan da.

Getmə gözümdən ölərəm,
Ürəyinə su səpərəm.
Sənlə qol-boyun gəzərəm,
Unutmaram,unutsan da.

Dərd üstünə dərd gətirmə,
Qoxla ətirlənnəm sənlə.
Şərik olmadın dərdimə,
Unutmaram,unutsan da

***2020***

## SƏN MƏNİM ŞEİRİMSƏN

Sən mənim şeirinsən,
Misralarda nələr var?
Dərdim başımdan aşar,
Məlhəmini kim arar?

Yaralar qan verəndə,
Rastıma sən gəlmədin.
Bu bədən can verəndə,
Səni tapa bilmədim...

Artıq illər ötübdür,
Köz bağlayıb yaralar.

Ağın rəngi solubdur,
Bu qəlbim də qan ağlar.

***2021 Bakı***

## BİLMƏDİM

Gözündən qəlbinə gedən yoluna,
Düşmək isyəyirdim,düşə bilmədim.
Məhəbbət tarixin yazmaq istədim,
Açsam da yaxanı, yaza bilmədim.

Eşqini qələmə almaq istədim,
O saf duyğuları tapa bilmədim.
O yükün altına girmək istədim,
Tərkimə alsam da,çəkə bilmədim.

***2024***

## VURULMUŞAM

Qələmimlə cızdım səni,
Ürəyimə yazdım səni.
Hər an arzuladım səni,
Qaş-gözünə vurulmuşam.

Həyatıma bağlısan sən,
Xəyallarda arzusan sən.
Davranışla varlısan sən,
Davranışa vurulmuşam.

Bur könüldən, min könülə,
Qəlbindəki ürəyinə.
Baxdım sənin yerişinə,
Yerişinə vurulmuşam.

Gəzdiyin el obaların,
Məsum-məsum balaların.
Sorğında sonaların,
Məsumlara vurulmuşam.

***2024***

## SEVGİM MƏNİM

Qeyrətinə qurbanam,
Ay mənim həm fikirim.
Qəlbimdə yuva salan,
Həm kədərim ,həm qəmim.

O qədər sevdim səni,
Mən qəlbinə vuruldum.
Lap məni incitsən də,
Baxışlarından uydum.

Ay canım gözüm mənim,
Ay qəlbimin parası.
Gəl sənə sevgi verim,
Sən sarıqla yarasın.

***2024***

## MƏN SƏNİ NECƏ SEVMİŞƏM

Mən dünyanı "dolaşmışam",
Ürəyimlə çarpışmışam,
Qayalar, dağlar aşmışam.
Özüm də çaş-baş qalmışam,
Mən səni necə sevmişəm?

Həyat məni ağladanda,
Həyat məni dağladanda,
Əl-qolumu bağladanda.
Ən adi bir şey bilmişəm,
Mən səni necə sevmişəm?

Həyat məni alışdırıb,
Həyat məni çalışdırıb,
Həyat məni qovuşdurub.
Sevmişəm, həm sevilmişəm,
Mən səni necə sevmişəm?

Dünyam mənə dayaq olub,
Dünya mənə soraq olub,
Arzularım donub solub.
Ayaq üstə büdrəmişəm,
Mən səni necə sevmişəm?

Eyləsənə sən bir soraq,
Birləşək bir saziş quraq,
Zəncirləri qıraq, ataq.
Gör necə həyat görmüşəm,
Mən səni necə sevmişəm?

***2021***

## ALDIN AĞLIMI

Sən elə əlimdən aldın ağlımı.
Necə vurulmuşam gözəlliyinə.
Söylə yuxudurmu, yoxsa nağılmı,
İnana bilmirəm hətta gözümə.

Yolunda keşikçi qaldım, yoruldum,
Səni qısqanıram gözlərimə də.

Şirin yuxularda həmdəmim oldun,
Bəzən şükr edirəm göz verənə də.

Heç bilmirəm niyə düşdün yadıma?
Elə kövrəlirəm düzünü desəm.
Vallah arzulardır çatan dadıma.
Ağlıma gəlməz ki, mən səndən küsəm



# SÖZÜMÜZ SÖZ OLSA

# TİKANLI QIZILGÜL





***(Atam Babayev Hacıbaba Xanbaba oğlu. Müəyyən məsul vəzifələrdə aktiv olub. Ruhu şad olsun.1916- 1969)***

Tikanlı güllərə aşiq olanlar,
Sormayın məhəbbət hardan yaranıb.?
Atamın əkdiyi qızılgülündən,
Gözəl qoxu verən güldən yaranıb.
Əkdiyi qızılgül elə hər ildə,
Bağda qönçələnib çiçək açardı.
Hələ də qoxusu itməyib onun,
Yetmiş il qoxladım,100 il «qoxlardım».
Dərdə dərman olub,qızılgül ətri,
Ağrısın acısın alardı onun.

Qoruyub saxladım o ənnənəni,
Onsuz gızılgülün solub qalardı.
Hər gün sübh sabahdan suyunu verib,
Çiçək açmaq üçün əzizləyərdim.

***2021***

# YAŞA ANA..!



***Anam Zəbinə Məmmədova Hacıverdi qızı. Demək olar məsul vəzifələrin hamısında işləyib. Ruhu şad olsun. 1928- 2004 )***

Tanrım,sevincini, kədəri,qəmi.
Analıq hissini,bəxş  edib ona.
Sarılsa xəstəlik incə ruhuna,
Məlhəmin özündə axtaran ana.!

Yatanda bir gözü açıq yatacaq.
Bütün dərdlərinə o ağlayacaq.
Sübhədək yatmayıb oyaq qalacaq.
Məlhəmin özündə axtaran ana.

Bir gün ayırdılar qəmsiz yaşasın,
Kədəri unudub qəlbini açsın.
Olmazmı həyatda,qəm daşın atsın,
Məlhəmin özündə axtaran ana.?

Əziz analarım mənim canlarım,
Hər dərdi sevinci bölüşənlərim.
Unudub əzabı,dərdin at yaşa,
Məlhəmin özündə axtaran ana.

***2024***

# TƏBABƏT ELMİNDƏN FAYDADAN YAZAQ

Bu gözəl,səfalı məkanımızdan,
Sevgi,məhəbbətdən hər an yazırıq.
Etiraz etmədən deyə bilərəm,
Təbabət elmindən, otlarından da,
Şeir yazmamışıq,gəl indi yazaq.

Düşündüm yeni bir açılış edək,
Təbiət bitirən nemətdən yazaq.
Qanqaldan, yemşandan, böyürtkənindən,
Bitib tükənməyən otlardan yazaq.

Torpaq bəxş etdiyi dəva dərmandan,
Xalqına olunan xeyrindən yazaq.
Faydalı göyərti, yemliklər,şilgir,
Dağlarda,çöllərdə, çəməndə bitir.
Gündə neçə nəfər dünya dəyişir.?
İstifadə qaydasın, bilənlər bilir.

Ala qanqalından,dazı otundan,
Bağayarpağından, pərpətöyündən,
Şüütdən, keşnişdən,ispanağından,
Dadı ləzzət verən, vəzərisindən,
Xoruz otu, cəfəri, cılatqasından,
Kəklik otu,çələmir, yerkökündən.
Dəmləyib içəsən yesən ətirdir,
Soruş faydasını sən bilənlərdən.

Soğan, sarımsağı, cana dərmandı.
Çuğundur deyirəm baş tükü sanı.
Faydasın bişirib yeyəndən soruş,

Onun da canlara, faydasın tanı.
Yeyib qurtaranda tamından danış.

Yemiş,balqabağı, candı qarpızı,
İndi məqamıdı,gəl  ondan yazaq.
Alması armudu demirəm hələ,
Təbiət elmini xalqa tanıdaq.

***2022***

## TAPA BİLMƏDİM ÖĞLUNU

***(Anaya məktub)***

Oxudun yazılmış tam məktubumu.?
Şəhidlər bir yerdə saxlanır ana.
Baxmışam hamının simalarına,
Tapa bilmədim ki, oğlunu ana.!

Utanc gətirici əməllərdi bu,
Hamının adı da, soykökü üstdə.
Necədə dözülməz işkəncədi bu,
Uşaqlar,qadınlar hamı üstə-üstə.

Düşünmək ağırdır görməksə çətin,
Boynunu məftillə sarıqlayıblar.
Ağaca bağlayıb qarnını yarıb,
Kəsib qulağını itə atıblar.

Necə vəhşi dövrə gəlib çıxdıq biz,
Kişidə kişilik qoymadılar ki.
Həyasız, həyasız, götürüb gedib,
Həyalı üzünü,yaylıqla örtüb.

Övladı atanın gözü önündə,
Qızını neçəsi zorlayıb atıb.
Körpə uşaqları dəmir torbada,
Bağlayıb ağzını od da vurublar.

Sən məni üzürlü say gözəl anam,
Vallah mən yanında çox günahkaram.
Artıq düşmənlərin dərsini verdik,
Torpaqlar alınıb evə gəlirik.

***2020***

## RUHUN ŞAD OLSUN MURAD MURADOV

***(QUBALI yazar tamadaya ithaf.)***

Hanı sənin qürurun,
Niyə gömdün torpağa.?
Torpağdan yaranmışdın,
Bax qayıtdın torpağa.?

Niyə düşünmədən heç,
Sənin dostların qaldı.
Toylar müsahibələr,
Şeir,hekayələrin,
sənsiz masanda qaldı.?

Sosial şəbəkələr,
Dəyibdi bir-birinə.
Tanıyan-tanımayan,
Rəhmət diləyir sənə.

Murad həmin Muraddı,
İnana da bilmirik.

Aləm göz yaşı tökür,
Biz ağlaya bilmirik.

***2024***

## SÖZÜMÜZ SÖZ OLSA

Söz mülkü bitməsə insan qocalmaz.
Qəlbi qırılmasa heç vaxt sarsılmaz.
Həyat elə qəliz, elə çətindi,
Ürəkli olmasan, dərdin azalmaz.

Sevgi bir məktəbdi, diplomu olmaz.
Sevgisiz ürəyə qan da işləməz.
Qanı damarında donsa yeriməz.

Arzuların dərya məhəbbət röya,
Etibarlı dünya,heç vaxt boşalmaz.

***2021***

## NƏSİHƏT

Dünyaya elmlə tanıt özünü,
Dəyər ver dostuna,»çıxar gözünü».
Dinləsən böyüklə,kiçik sözünü,
Dəyəri sözlərlə dəyərində qal.

Atanı ananı tanıt elinə,
Qardaşı,bacını qəlblə sevənə.
Unutdur hər şeyi,dərdi sevinclə,
Dəyəri versələr dəyərində qal.

Oğulla, uşağa, dosta sirdaşa,
Xırda şeylər üçün əyilmə boşa,

Elə dəyər ver ki, doğmana yada,
Dəyəri versələr dəyərində qal.

Axıtma hərzayı gözün yaşını,
Ağartma mənasız yerə başını.
Bəzəsən simanda, gözün, qaşını,
Dəyəri versələr dəyərində qal.

Qalxsan uca dağa ucalar başın.
Mənalı ömrünə yazılar daşın.
Dəymə bir kimsəyə dağılar qaşın,
Dəyəri versələr dəyərində qal.

***2021***

## ƏYRİ-DOLANBAC

Kiminin yolları əyri-dolanbac,
Kiminin yolları dümdüz səyrimir.
Kiminin həyatı yağ kimi gedir,
Kiminə həyat da ağırlıq edir.
Kimisi ruzusun rahat qazanır,
Kimi ruzusunu, daşdan çıxarır.
Kimi ruzusunu rahatca yeyir,
Kimisi ruzusun rahat yedirir.
Kimi yediyini bir qazanc bilir,
Nəfsinə hakim yox,düşmən kəsilir.
Kimisi halala haram da qatır,
Halalı haramla ölçüyə qoyur.
Kimi haramlıqla yediklərini,
Getdiyi yollarda salıb batırır.
Halal qazanan da az qazansa da,
Öz halal malını halala qatır.

***2024***

## BAYATILAR

Yalan desə dodağım,
Onu duymaz qulağım.
Durar ömür karvanı,
Addım atmaz ayağım.

Yuxu getməz gözümə,
Heç kim baxmaz sözümə.
Dilim yalan söyləsə,
Yol bağlanar üzümə.

Eşq qəlbimdən üzülməz,
İnsan sözlə öyünməz.
Ömür yaşla ölçülür,
İstəməsən o gülməz.

Qurban hər bir anaya,
Tək ilahi dünyaya.
Lazım gəlsə anında,
Canın verər balaya.

Gün sürmək nə peşədi,
Süləndiyi küçədi.
Desə də yaşayıram,
Onun ömrü heç nədi.

Əzizinəm gül üzlüm,
Mehribanım gül üzlüm.
Çətin anda zamanda,
Gülümsəyən gül üzlüm.

***2022***

## BAYATILAR

Qızılgülün dəstəsi,
Mənəm onun xəstəsi.
Ölüncə qoxlayaram,
Olsa bircə dənəsi.

Qızılgülü əkərəm,
Özüm onu bəslərəm.
Gecə gündüz səbirlə,
Açılmasın gözlərəm.

Qızılgülüm al gülüm,
Qəlb oxşayan bal gülüm.
Rəngləri çox,ətri xoş,
Baxan deyər gül gülüm.

Qızılgülü bəslərəm,
Ətrindən növrəstəyəm.
Bütün  güllər içində,
Təkcə ona dəstəyəm.

Qızılgül dəstə-dəstə,
Qoxlaram xəstə-xəstə
İstərəm qönçələri,
Düzülsün sinəm üstə.

Qızılgülüm ağlayar,
Sinəm yara bağlayar.
Öz gözəl görkəmiylə,
Ürəkləri dağlayar.

***2022***

## TƏKƏRİ TANRIM

Bir gün düşündüm ki,bir risk eyləyim,
Dəyişim yerimi bir başqasıyla.
Bu fikri başımda mən cəm eyləyim.
Düşüncəylə bəlkə, yenilik edim.?

Durmaq istəyəndə qəfil yerimdən,
Əlim zədələndi,çox pərt oldum mən.
Çıxdım çölə sarıqlayım əlimi,
İlişdi ayağım yıxıldım birdən.

Elə bil gözümdə ildırım çaxdı,
Üstünə qəfildən qayalar axdı.
Qayıdıb yerində oturanda mən,
Sanki birdən kətil,  qalxdı yerindən.

Daşınıb fikrimdən çox gec olmasın,
İlk əvvəl  kətilə təzim eylədim.
Sonra da yerimi dəyişərək mən,
Halalca yerimçün dua eylədim.
Bilirmiş Allahım hərənin yerin,
Dəvəyə qanadı,quşa təkəri.
Verməyib kimsəyədəyişsin yerin

**2022**

## BAYRAMDA

Bəzənərdi Vətənim hər
Bayramda,hər ildə.
Şənlənərdi uşaqlar,
Novruzda yeni ildə.

Əfsus ki,uzun illər,
Əsarətdə olmuşuq.
Baxmayaraq biz millət,
Cəsarətli olmuşuq.

Rahatlıq vetməyiblər,
Azərbaycan xalqına.
Siyasət yollarıyla,
Əl qoya torpağına.

Bir kimsə dinləməyib,
Söküb varidatını.
Yeraltı, həm yer üstü,
Zəngin yataqlarını.

Döyüldük və söyüldük,
Haqq ədalət yolunda.
Çarpışaraq vuruşduk,
Azadlığın yolunda.

Bu gün azad Vətənə,
Yenə müdaxilə var.
Müstəqil  olmağını,
Gör ki, münaqışə var.

Otuz illik ayrılıq,
Qarabağdan keçirdi.
Biz bulanlıq sularda,
«Hay» bulaqdan içirdi.

Taxıl zəmilərimiz,
Yanırdı susuzluqdan.

Kasıb dolana bilmir,
İnsan da pulsuzluqdan.

Qalx dedilər millətə,
Haqqını tələb elə.
Qaytardıq Qarabağı,
O məxsusdur bu elə.

Nəhayət səfərbərlik,
Elan oldu millətə.
Torpağı azad edək,
Yetişdik son niyyəti.

Çağırışlar səsləndi,
Biz qəhrəman igidik.
Elan etdi komandan,
Unudulsun bədbəxtlik.

Torpaqdı sorumumuz,
Hər tərəfdən xalqımız.
Keçsin məğrur mətinlə,
Mərd qəhrəman ordumuz.
Azad olsun torpaqlar,
Əsirlər azad olsun.

## BU CAVAN CANIN DA  GETMƏSİN HƏDƏR

Sən düz seçməmisən həyat yolunu,
Axsaya həyat da,gedir yolunu.
Nə irəli gedib arzularına,
Nə də geri qalıb xəyallarına,
Mühütün ən ağır əzabıarına,
Sahib çıxa bilmir,kordu bu həyat

Dözməyib nəhayət,məhv olur həyat.
Axtarma haqqını səni məhv edər.
Zalımlar yer alıb,boşluq o qədər.
Gücünü göstərmə,qol gücdən düşər,
Sınan bir zamandı,ölübdü dəyər.

O qədər kasıbsan,üzübdü kədər
Yığıb köç külfətin,dəyməsin zərər.
Yaşa Allah verən ömrün nə qədər,
Əlacsız yerlərə soxma başını.
Bu cavan canın da getməsin hədər.

***2022***

## DOST ARAYAR DOSTUNU

Yaxşı dostu araki,
Səni heç unutmasın.
Pisi qara yaradı,
Ürəkləri dağlasın.

Fikir vermə boş burax,
Uzaqlaş yaramazdan.
Səni sorub aparar,
Olduğun  bataqlıqdan.

Ac toyuq darı görər,
Yuxusunda axtarsan.
Darı bölə bilməzsən,
Yuxudan ayılmasan.

İki eşşək arpasın,
Bölə bilməz naşılar.
Hər an səni arzular,
Ürəkdən sevən dostlar.

***2024***

## DEYİMLƏR

Halal zəhmət,gözəl yaz,
Dosta xəyanət olmaz.

Özün əkib becərsən,
Bəhrəsini görəsən.

Tamaşa et xalına,
Toxunma camlına.

Ulduz böyük ay olmaz,
Ay günəşə tay olmaz.

Arına bax arına,
Pətəkdəki balına.

İştahanı az elə,
Kim çatar imdadına.?

***2024***

## 52 İL SONRA

Sevincimi sizlə böldüm,
Həm ağladım həm də güldüm.
Kədərimə şərik gördüm,
Həm toxudum,həm də hördüm.
Həyat məni sevindirdi,
Sevincimdəm bihuş oldum.
Kədər məni izləsə də,
Kədərimlə həmdəm oldum.
Allah bizi bu xətadan
Bu bəladan hifz eləsin.

Ağlamadım, gözü yaşlı,
Bu dünyanı mən dolandım.
Qəm dəryasına batdım,
İstəmədim bölüşmədim.
Sevincimə şəriki də,
Mən özümə çoxca bildim.
Ey insanlar səbr eləyin,
Dərd də,qəm də,hər an bizlə.
Sevincimizi bölüşək,
Həm əzizlə,həm də bizlə.

***2024***

## NARKOTİKƏ ALUDƏ

Fikri tar-mar idi,
Zəhərlədi ömrünü.
Bir gün gözəl göründü,
Səhər vurdu könlünü.

Dəyişən təki halı,
Simada da dəyişdi.
Sifəti də büzüşdü,
O haldan hala düşdü.

İnsan öz düşmənidir,
Bax o indi anladı.
Ailədən uzaqda,
Qaldığına inandı.

Xəstəliyə tutulub,
Evdə atılıb qaldı.
Birdən düşdü yadına,
Niyə yandım bu oda.?

Narkotikə qurşanıb,
Özümü saldım oda.
Səhhətimin qeydinə
Qalmadım düşdüm oda.

***2024***

## BİLMİRƏM

Həyat məni elə sıxıb sındırıb,
Düz yoluma işıq saça bilmirəm.
Elə yorulmuşam, elə bezmişəm,
Götürüb başımı qaça bilmirəm.

Köksüm sipər olub,qəmə,sitəmə,
Hicranı, həsrəti, yıxıb üstümə.
Sanki aylar illər durub qəstimə,
Qanadsız bir quşam uça bilmirəm.

Məhəbbət qəlbimdə,dönüb sazağa,
Kədər doğmalaşıb getmir uzağa.
Mən oldum bir kölə,acılar ağa,
Qəlbimi kimsəyə aça bilmirəm.

Sanki yuxularım tərsə yozulub,
Ayağım altında quyu qazılıb.
Hamının bəxtinə bahar yazılıb,
Mənimsə bəxtimə  qış, sazaq yazıb.
Götürüb başımı qaça bilmirəm.

***2022***

## DEMƏYİN

Paxıllıq deyillən canımda yoxdur,
Tülkülük xisləti,qanımda yoxdur.
Cibi boş ağılsız,pulsuz biriyəm,
Bilmirəm kim olsun dərdimə həyan.?
Amandır etməyin sirrimi bəyan.

Həyatın gərdişi elə qəlizdi,
Çoxu keşməkeşdi, dörd yan dənizdi.
Hər yanı gözəllər,bir də kənizdi,
Bilmirəm kim olsun dərdimə həyan?
Amandır etməyin sirrimi bəyan.

Ömrü arzularla yaşamışam mən,
Sevgimi qəlbimdə daşımışam mən.
Dünyanı sevərək,dolaşmışam mən,
Bilmirəm bir kimsə yoxmudur həyan?
Amandır sirrimi etməyin bəyan.

Dövlətdə, sərvətdə nəfsim olmayıb,
Kiminsə varında gözüm qalmayıb.
Məni ətrafımda soran olmayıb,
Bilmirəm kim olsun dərdimə həyan,
Amandır etməyin sirrimi bəyan.

***2021***

## XƏBƏRİN VARMI.?

Sənin bu halımdan xəbərin varmı.?
Qapasam gözümü,aça bilmərəm.
Mən elə gündəyəm,  elə haldayam,
Acılsa əlin də qaça bilmərəm.

Bu dünya gözümdən elə düşüb ki,
Baş alıb mən gedim hara bilmirəm.?
Ürəyim darıxır səndən ötəri,
Elə bil tələyə tora düşmüşəm.

Yuxum yoxa çıxıb,çəkilib ərşə,
Taleyim yapışıb saman çöpündən.
Səhərə gümanım qalmayıb vallah,
Zamanın ipindən tuta bilmirəm.

Ümüd çırağım da közərib qalıb,
Çətin ki, bir daha,alışa yana.
Gileyli deyiləm,mən bu bəxtimdən,
Zamanla ümüdüm bəxtim oyana.

Heç kimin arzusu çiliklənməsin,
Hamının taleyi üzünə gülsün.
O qədər bu həyat məni ağladıb,
Sevinci olanlar gəlsin bölüşsün.

***2020***

## SƏN QAPIDAN ÇIXANDA

Səhər günəş doğanda,
Günün nura boyansın.
Sən qapıdan çıxanda,
Gül-çiçəklər oyansın.

Pis üzlərdən uzaq ol,
Sevənlərin çoxalsın.
Pislikdən əlini üz,
Xoş günlərin çox olsun.

Saf ürəklə gəz dolan,
Özünə dərd arama.
Nə bir saxta, nə yalan,
Etsin səni qurama.

Vətəninə dayaq ol,
Çətin anda zamanda.
Öz adına layiq ol,
Heç vaxt qalma gümanda.

Şirin-şirin deyib gül,
Bu gününə şükür et.
Nə iş görsən həddin bil,
İndi yığış durub get.

***2022***

## SAXLAYIRAM

İllərlə etdiyim yaxşılıqları,
Çoxdandı qəlbimdə mən daşıyıram.
İllərdi etdiyim dualarımı,
Məni sevənlərə mən tapşırıram.
Ağlımın içindən gələnləri də,
Məsləhətli yerdə mən danışıram.
Yox əyər qəlbləri qırıramsa mən,
Özüm öz cəzamı mən axtarıram.
Nə qədər desən fikir verməyin,
Hər bir işlərimin mən ustasıyam.
Ürək elə şeydi, qınamıram ki,
Nə edir, etməyir, tək mən bilirəm.
Bircə onu bilirəm ki,fani dünyada,
Bütün unsanların mən sirdaşıyam.

***2024***

## BAĞLANIRSAN

Baxıram nur simana,
Nə qədər saxtaymışsan.!
Bu gün məndən danışıb,
Səhər yaltaqlanırsan.

Gileylərin N qədər,
Hər an şikayətlisən.
Üzümə baxıb gülür,
Daldada dinc deyilsən.

Söz çəkirsən əməllə,
Ağla gileylənirsən.
Səni qane etməyən,
Üzdən bəhrələnirsən.

Həyat şeytan cildində,
Sən nöqsan axtarırsan.?
Hər günün bir möcüzə,
Sonra da bağlanırsan.

O bağlar saman çöpü,
O bağlar üzülübdür.
Ümüd etdiyin budaq,
Çınıb çürük-çürükdür.

Ağlını başına yığ,
«Əli» olandan yapış.
Mənə fikrin getməsin,
Çöp dönüb olar gamiş.

***2024***

# XƏSTƏ ARZU

Yoxdu bu dərdimə əlac,nə edim,
Nə qədər bükülsün,əyilsin qəddim.?
Təbibə dil açdım,məlhəm istədim,
Söylədi dərmana möhtac olma sən,
Bütün dərdlərinə səbəb özünsən.

Daldıqca xəyala gözləri süzgün,
Arzular susduqca halı çox üzgün.
İçimdə qəm-qüssə böyüyür hər gün,
Dönüb pərvanəyə  şəmə dolanır.
Dərd kədər əlindən yanır odlanır.

Nədir o içində yanıb alışan,
Bəlkə bir həvəsdir təzə oyanan.?
Əlini göyə tut, bircə an dayan,
İstəsən çatarsan sən imdadına,
Əyər bağlansan sən,arzu kamına.

Tükü-tükdən seçən qalıb naəlac,
Heç kim olan deyil, dərdinə əlac.
Yeyib iç, kef elə,gəzmə qarnı ac,
Sənin sağlamlığın öz əlindədir,
Şirinlik eyləmək öz dilinlədir.

**Qeyd:**
Allahım nə qədər arzum var mənim,
Yardım et, həyata keçirim bir-bir.
Qalmış,yazılmamış sözüm var mənim,
Qoyma həyatımı oynatsın mənim
Haqqın özü qədər sözüm var mənim.

***2018***

## PAYIZ GƏLDİ

Payız gəldi ərənlər,
Töküləcək xəzəllər.
Yığılacaq gözəllər,
Yağış- yağa şırhaşır.

Yuyula el-obalar,
Təmizlənir günahlar.
Toplanaraq ozanlar,
Söyləyəcək  qəzəllər.

Yolunu qət edəcək,
Yurdunu pir biləcək.
Ziyarətlər edəcək,
Gəlib-gedən qonaqlar.

Həyat davam edəcək,
Günümüz xoş keçəcək.
Nağıllar söylənəcək,
Bizim ata, analar.

***2023***

## İTİ QOVMAQ  İDİ DƏRDİM

Bir dərdim var,Vətən dərdi,
Ürəyimi gərdi-gərdi.
Palaz kimi yerə sərdi,
Qaldım xeyli,keçdi zaman.
Oyananda ağrım oldu,
Ağrıdan rəngim də soldu.
Gözlərimə duman doldu ,
Kirimədi ağrım-yaram.

Atam-anam yada düşdü,
Körpə balam gəldi öpdü.
Yoldşıma sözüm ötdü,
Cəbhəyə vetdiyim zaman
Anla məni anam-atam,
Mən vətənsiz yadam-yoxam.
Azad Vətən qoxusunu,
Mən doyunca gərək dadam.
Qələbə qoxusu gəldi,
Qəlbim qoxuya kövrəldi.
İti qovmaq idi dərdim,
Qovladıq biz, yoxdu dərdim.

***2020***

## AÇMAZ

Heç zaman qıymaram,
Əlim də qalxmaz.
Siman toxunulmaz,
Çiçəyə qıymaz.
Qorxu cənnətdəndir,
Deyib atalar.
Solmuş çiçəklərin,
Qönçəsi açmaz.
İnsan bir çiçəkdir,
Əyər baxmasan,
Gözlərin yumarsa,
Bir daha açmaz.

***2023***

## DƏRD ALDI

-Sordular haralısan.?
-Yerin nə mənası var.?
Yerlibazlıq kök salıb,
-Ola bir-birinə yar.

Hə anlatmaq istədim,
Bir az könlünü alım.
Yaltaqlığım yox mənim,
Yenə kənarda qaldım.

Allahını tanıyan
Göyün yeddi qatında.
Tanımayan haramlar,
Unudulur hər anda.

Sındı qolum-qanadım,
Ürəyim çox sıxıldı.
Sevincim yoxa çıxdı,
Onun yerin dərd aldı.

***2023***

## TANIMIRAM

***(Səmimi)***

Həm soluma, sağıma,
Hey baxıram yanıram.
Yazılan hər yazını,
Oxuyuram qanmıram.
Üzbə -üz dayanmadan,
Arxadan daş tullayan.

Dost deyən.. bağışla sən,
Belə dost tanımıram.
Dərindən düşünəndə,
Vallah peşiman oluram.
Yanlayıb hər addımda,
Təhqirə yol açanlar.
Ürəkdən sevməyənlər,
Üzə yaltaqlananlar.
Bir qarın çörək üçün,
Ailəsin satanlar.
Dost deyən..bağışla sən,
Belə dost tanımıram.
Dərindən düşünəndə,
Vallah peşman oluram.
Öz işi xatirinə
Tülkü tək quyruq bulayan.
Hardan gəldi hirslənib,
Daş-kəsəyi tullayan.
İt kimi quyruq bulayıb,
Aralananda saymayan.
Dost deyən ...bağışla sən,
Belə dost tanımıram.
Dərindən düşünəndə,
Vallah peşman oluram.

Kişi kimi,kişisən,
Əl verib görüşürsən.
Söz atıb daldalanıb,
Sırtıq kimi gülürsən.
Arada dönüb geri,
Arxaya boylanırsan.
Nə günlər keçirmisən,
Nə günlərə düşmüsən.?

Dost deyən ..bağışla sən,
Belə dost tanımıram.
Dərindən düşünəndə
Vallah peşman oluram.

Tövsiyyəm budur sənə
Toparla sən özünü.
Düşünüb danış bir az,
Dildə deyən  sözünü.
Kimə sözün deyəsən,
Gözünə sən düzünü.
Ay insan yığ özünü,
deyim yoxsa deməyim.
Dost deyən...bağışla sən,
Belə dost tanımıram.
Dərindən düşünəndə,
Vallah peşman oluram.!

***2024***

## GÖZÜNÜ YUMAN DÜNYASAN

Yaradana balta çalan,
Söz deyəndə,çətin qanan.
Vicdanını pula satan,
Hər şeyi «qumara» qoyan,
Gözünü yuman dünyasan.

Kimə desən dərdini,
Artıracaq qəmini.
Çəkib hər şeydən əlini,
Yıxıb-sökən dağıdan,
Gözünü yuman dünyasan.!

***2024***

## BACARMADIM

Mən özümlə bacarmadım.
Elə sevdim ki, mən səni.
Göydə qartal yerdə ilan,
Sevə bilməz bir kimsəni.

Mən özümlə bacarmadım,
Mən diriyəm sənsə ölü.
Dənizləri yaran gəmi,
Keçəmməz ki, kiçik gölü.

Mən özümlə bacarmadım,
Nə yuxum var nə də dözüm.
Yazıb -pozan birisiyəm,
Yumulmayır baxan gözüm.

Mən özümlə bacarmadım,
Elə sevdim ki,mən səni.
Bağırsam da,çağırsam da,
Dönməyəcək gedən gəmi.

***2018***

## BEZDİM USANDIM

Nə qədər nəsihət etdim ta bəsdi.
Ömür,taleyimdə küləklər əsdi.
Elə soyudum ki,səbrimi kəsdi,
Mən belə dünyadan bezdim,
**usandım.**

Dünyanı yalanlar, alıb çənginə,
Elə sıxır səni,sanki,məngənə.

Nə yaxşı fikrin var,topla özünü,
Sanma qanmazlığa bezdim,
**usandım.**

Yolun da göstərdim,deyil vecinə,
İmdad eyləsən də,deyir nə vecmə.?
Əksinə sıxacaq gəlib üstünə,
Daha deməyəcək bezdin,
**usandım.**

***2023***

## AYILIN MİLLƏT

Ey mənim millətim dinlıyin məni.
Bilirsiz bəndəniz çəkir əziyyət.?
Nə gərək bu qədər yatırsız axı,
Hər dəfə söyləyək ayılın millət.!?

Qoyun qarşınıza papağınızı,
Etməyin günahlar,daha bəsdirin.
Otuc tutub,namazını qılın siz,
Hər dəfə söyləyək ayılıb millət.?

Namusu qeyrəti hər an qoruyun,
Ruzunun əzəldən qədrini bilin.
Kasıba əl tutub ruzu təksirin,
Hər dəfə söyləyək ayılın millət.?

Varlıda insaf yox yoxunda mürvət,
Onun da acısın çəkəcik əlbət.
Sərvəti qoruyub,edin qənaət,
Hər dəfə söyləyək ayılın millət.?

***2023***

## MEYVƏLIRİN HARAYI

***( Qubadan)***

Bu dünyanın tutub durma əlindən,
Ayağa dur dəyiş sən də kökündən.
Bu zonanın/yerlərin/ meyvə-tərəvəzindən,
Dadmaq olmur dərmandı nə edəsən.?

Ey alimlər nə yatmısız ayılın.
Düşüncəylə çarəsini axtarın.
Almalardan cırhacını qaytarın,
Xəstələrin dərmanıdır,çox yeyək,
Bütün dünya izləyərək söyləsin,
Yeyən zaman ağız dadı dəyişsin.

***2023***

## YOL TAPMASIN QƏLBİNƏ

Ananın əskər oğluna tövsiyyəsi.
Namərd olma vətəninə elinə,
Nə bacarsan cəhd eylə sən,gücün nə.?
Qoy pis sözlər gəlməsin o dilinə.
Çalış oğul xeyir ver Vətəninə,
Namərd kimsə,yol tapmasın qəlbinə.

Gördüklərin azdırmasın səni qoy,
Yaxşı fikir fayda olsun sənə qoy.
Pis əməlin durmasın üzünə qoy,
Düz yaşa ki,dəyməsinlər xətrinə,
Bir gün ölən, gedəcək mənzilinə.

Elə yaşa  günün hədər getməsin
Rastlaşanlar qoy səndən çəkinməsin.
Hər gəlişin sevinclə gözlənilsin,
Ürəyini saf saxla sən incimə.
Bir kimsələr deməsinlər günü nə.?
Bir gün gələn gedəcək mənzilinə.

***2024***

## YOL TAPMASIN QƏLBİNƏ

Namərd olma Vətəninə, elinə,
Nə bacarsan cəhd elə sən gücün nə.?
Çalış oğul, xeyir ver Vətəninə,
Qoy pis söz gəlməsin dilinə.
Namərd kimsə yol tapmasın qəlbinə.

Gördüklərin azdırmasın səni qoy,
Fikirlərin fayda olsun,sonu toy.
Əməllərin durmasın üzünə qoy,
Mən olmasam toxunmasın şəstinə,
Bir gün ölən gedəcək mənzilinə.

Elə yaşa,günün hədər getməsin,
Rastlaşanlar,səndən qoy çəkinməsin.
Hər gəlişin, qoy sevinclər bəxş etsin,
Ürəyini saf saxla sən incimə,
Bir kimsələr deməsinlər günü nə.?

***2022***

## DƏRDİNİ SÖYLƏ BİLİM

Dərdimi söylə mənə,
Qəlbim bir az dincəlsin.
Fikirlərim tam deyil,
Söylə köməyim dəysin.?

Cavanlıq ötüb çoxdan,
Baxıram bu həyata.
Unutmusan deyəsən,
Dəstək ollam istəsən.?

Gündə bir paltar kimi,
Fikirlər təzələnir.
Məclislərdə günə-gün,
Davranış çözələnir.

O qədər gözəllər var,
Rəngarənglik sezilir.
Masalarda təamlar,
Müxtəlif cür düzülür.

Sevgidə boşluq varsa,
Vur açarın kilidin.
Özün itirən zaman,
Tulla uzağa getsin.

*2017*

## HALBA-HAL ŞAİR

Şair bədahətən yazar,
Qəlbindən nur aşıb-daşar.
Yazan zaman bəzən susar,

Redaktələr gedişatda,
Oxunsun toyda-büsatda.
Şeir qəlbin şüarıdır,
Arzuların açarıdır.
Bütün şərhlər mənalıdır,
Rahatlanır düz yazanda,
Pis olur alınmayanda.
Ağlamsınar»ac»olanda,
Üzü gülər tox olanda.
Çox istəmir az olanda,
Qəlbdə sevinc aşıb-daşar,
Olmayanda dolub-daşar.

***2021***

## SƏHƏR YANIR ƏNDAMI

Fikrim tarı-mardı,
Zəhərləyib dünyamı.
Bu gün halı yasxşıdır,
Səhər yanır əndamı.

## SƏMİMİYYƏT

Vücudu «heyvana»bənzər varlığın,
Dalınca sürünür cəmiyyətimiz.
Nə varki, vəzifə sahibidir o,?
Qorxmur ki, azalar bu hörmətimiz.

Amma düşünmür ki,yaltaqlığına,
Azalar kütlə və kəmiyyətimiz.
Nə olsun dünyanı fəth eləyirlər,
Dəyişiklik yoxdur vücudlarında.

Siçovul nahaqdı gəmiricilikdə,
Maşaallah axsamır keyfiyyətimiz.
Axı heç yaraşmır millətimizə,
Arlı-abırlıdı mintalitetimiz.

***2024***

## SƏRXOŞ

Hər gün yeyib içəndə,
İçi çox pis göynəyir.
Səhəri oyananda,
Başım çatmayır deyir.
Paxmelimi qoy açım
Yoxsa göynəyir içim.
Tale belə yazılıb,
Dindirəndə çəkinmir.
İnsan öz düşmənidir,
Elm adamı söyləyib.

Siqaretin qücünü,
Onu çəkəndən soruş.
Dadın bilməyənlərə,
Deyir çevrədən soruş.
Ağ ciyəri qaraldır,
Paravoz tüstüsü tək.
Qəddini yaman əyir,
Çünki çiyər çürüyür.
Nəfəsi də daralır,
Rəngi solub-saralır.
Ona aludə olan,
Yavaş-yavaş qocalır.
Beli də ki,bükülür.
Yavaş-yavaş yeriyir,

O an ciyər partlayır.
Cavan ömrü qısalır.
Atır başın yastığa,
Zaman gəlir və ölür.

***2024***

## «CƏNNƏT, CƏHƏNNƏM BURDADI.»

Düz yolunu nədənsə,
Tutub getmir millətimiz
Çox hələ hədər yerə,
Olacaq bu zillətimiz.

Yox deyil ac yolunda,
Düşüb itir hörmətimiz,
Hələ çox yox olacaq,
Hədər yerə külfətimiz.

Nə ərzaqlar salamat,
Qiymət də durmur yerində,
Quru yerdə insanlar,
Balıq dənizin dibində.

Nə dəniz təmiz qalıb,
Mundarlanıb hər yeri də,
Orda rahatlıq tapan,
Rahat deyil öz evində.

Dağıldı bütün dünya,
Dağılacaq tufaqımız,
Silinib yer üzündən,
Gedəcək saf vücudumuz.

«Qalmayıb heç ümüd də,
Gözəl yaşayış qayıda,
Ömrümüz hədər yerə,
Qırılacaq ümüdümüz.»

Deyirdin fikir etmə,
Cənnət,cəhənnəm hardadır.?
Etdiyin əməllərin,
Suallanacaq, ordadı.
Qıl körpüsü,od-alov,hanı,
Deyirdin hardadı.»?
«Yeyib-iç,kef eylə sən,»
«Cənnət-cəhənnəm də burdadır.»

***2024***

## DİNLƏMƏYƏ QADİRƏM

Al əlləri üzündən,niyə belə qəmlisən.?
Gəlsənə sevgi verim,sözlərimi dinlə sən.
Aç ürəyin qapısın,icazə ver mən keçim.
Əllərin ovcumdadı,yoxdur başqa seçimim.

Rahat ol sən əzizim,qoy əsməsin ürəyin.
Görüşsək baxışımla,əsdirərəm tellərin.
Sözün düzünü desəm,ürəyim əsir mənim,
Danlama öz-özünü,sevgim sənin əsirin.

Sıxılma aç qəlbini,qoy dinləyim qəlbimlə,
Rahat ol sən əzizim,qəlbim dinir səninlə.
Bax görürsən,mən necə,necə həyəcanlıyam,
Əllərim tir-tir əsir,sevgidə ünvanlıyam.

Ürəyim dolub-daşır,deməyə risk etmirəm.
Qəlbim dinə də bilmir,ona görə susuram.
Nəyin varsa söylə sən,söylə mən dinləyirəm.
Hər an məni eşitsən,dinləməyə qadirəm.

Fikirləşmə heç zaman,sənə xain çıxaram,
Ən yaxşı hisslərimi,sevgim sənlə açıram.
Qəlbini aç əzizim,sevilək biz,sevək biz,
Cocuqları yan-yana,sevərəkdən düzək biz.

***2016***

## YOXAM

Yoxam bu dünyanın varlığında mən,
Əyər müqəvva tək yaşayıramsa
Yuxudur insanı sakitləşdirən,
Ayıq olduğumda yaradıramsa.
Yoxdur bu dünyaya etibarım da,
Əyər diri-diri alışıramsa.
Yoxdur insanlığa böyük hökmdar,
Əməlin qarşısı alınmayırsa.

***2024***

## FİKİR XƏRİTƏSİ

Var-dövləti yaxın qoyma özünə,
Uzaqda dur, qiyməti ver sözünə,
Qurban olum, səndəki cüt gözünə.
Bala-bala qazan gətir, razıyam,
Mən səninəm, bir kasıb balasıyam.

Arxasız insana, köpək də hürməz,
Kimsə ətrafında gəzməz- döyünməz,
Varlının dərdləri gözə görünməz.

Gücsüz canım sənə qurban “varlıyam”,
Mən səninəm, bir  kasıb balasıyam.

Etibarsız bir həyat yaşayıram,
İstəyim bol, xəyalların quluyam,
Ürəyimdə min bir dərd daşıyıram.
Qürurluyam, ailəmə bağlıyam,
Mən səninəm, bir kasıb balasıyam.

Varlı-kasıb bir süfrədə oturmaz,
Qürurundan yeməyə əl uzatmaz.
Kasıb arzusunu varlı doğrultmaz,
Varlının malını kasıb dağıtmaz.
Hər arzuna, istəyinə hallıyam,
Mən səninəm, bir kasıb balasıyam.

***2022***

## GÖZ YAŞI YUYUB APARIR

Dünyanı göz yaşı alıb apaır,
Əriyib qəlbimin piyi qurtarır.
Sayanı,saymazı yollar aparır,
Kimə güvənəsən yalan dünyada.?

Qalmışıq feyz ilə,tik-tok arası,
İnstoqram,tvittor,You tube arası.
Alimə,həkimə,can ay qadası,
Kimə inanasan,yatan dünyada.?

Ən yaxşı ayıq yat,yumma gözünü,
Yaxşı ye qayğına qal sən özünün.
Dinlə böyüyünün sən haqq sözünü,
Verəcək haqqını,yatan dünyada.

***2023***

## DUASIN

*(Nəsihət)*

Sən vurulma bu dünyanın mülkünə.
İnan bir gün düşəcək bit kürkünə.

İnsanlarda hər an axtar saflığı,
Lazım gəlsə ala bilsin tərkinə.

Unutma ki,kin-küdurət heç nədi,
Sevgi məhəbbətdə axtar xilasın.

Gözünü tox,qəlbini saf eylə ki,
Zamanında eyləsinlər duasın.

Bacardıqca kömək eylə,acizə.
Döyməsinlər səndən öncə qapını.

Etdiyin yaxşılıq,dünya malından,
Qiymətli olsun ki,çəksin adını.

***2024***

## SƏRBİRAH OLSUN

Gözəllik müvəqqəti,taxçaya düzülməsin.
Qəlbini gözəl eylə,baxışların sönməsin.
Qoy siman nurlu olsun.!

Hər kəlmən uçan quş tək,göylərdə pərvazlansın.
Getməsin ömrün hədər,kəlmələrin düzülsün.
Həyatın gözəl olsun.!

Dilindən çıxan kəlmən,qoy bal olub yayılsın,
Simalarda şirinlik,sinələrə paylansın.
Qəlbdə sərbirah olsun!

***2024***

## YANDIM QARDAŞ



***(Qardaşım İbrahim Hacıbaba oğlu Babayevin məzarı üstə 1954-2024)***

Yandı bağrım döndü közə,
Ağrılara dözə-dözə.
Getdin qardaş çözə-çözə,
Sən haqq, biz haqsız dünyada.

Balaları ağlar qoydun,
Ömür gün yoldaşın soldu.
Bacıların saçın yoldu,
Sən haqq, biz haqsız dünyada.

Fələk e’tibarsız olma.
Dünyama vəfasız olma.
Sinəmi odsuz yandırma,
Sən haqq,biz haqsız dünyada.

Ölüm xəbərin sarsıtdı,
Dost,tanışı çox pərt etdi.
Ziyarətin axirətdi,
Sən haqq, biz haqdız dünyada.

***2024***

## KASIB HARAYIM

***(Qardaş)***

Bahalı dünyadı kasıb harayım,
Torpağın yarmağı,yandım qovruldum.
Gözümün yaşıyla ovunamadım,
Çatmadı sən yatan otağa qardaş.!

İsti yorğan-döşək yordu canını?
Damarda qurutdu,isti qanını?
Qara torpaq çəkib aldı odunu,
Bilə-bilə,tərk etdin bizi qardaş.!

Axı qonaqpərvər bir insan idin,?
Kimsəni incitməz,heç yormaz idin.
Dəvətli-dəvətsiz, bir doğma idin,
Qıymazdın bir kimsə inciyə qardaş.!

İndi rahat uyu,ağrın ovunsun.
Mənsə bir də səndən sormam yoruldun.?
Dərdlər ortaq idi,indi ayırdın,
Sən öz dərdlərinlə,biz sənin qardaş.!

***2024***

# BUNUN YOXDU SÖHBƏTİ

Qalxdı neftin qiyməti,
azərbaycan milləti.
Udacaq yenə məmur,
Bunun yoxdu söhbəti.

Bazar od tutub yanır,
Kasıb gününə yanır.
Pulu olan nə qanır,
Bunun yoxdu söhbəti.

Ata-atdı bu dünya.
Sata-satdı bu dünya.
Bata-batdı bu dünya,
Bunun yoxdu söhbəti

Ağız açsan vuracaq,
Üzünə də duracaq.
Yalanla doyduracaq,
Bunun yoxdu söhbəti.

Susmaq.! Budur vəzifən.?
Qalmayıbdı səviyyən.!
Dinməyəsən qqətiyyən.!
Bunun yoxdu söhbəti.

***2022***

# BİR QURU ÇÖPÜ DƏ QIYAN OLMADI

Yüz il əlləşəsən, kətmən vurasan,
Köməksiz tək tənha gün ağlayasan.
Varın da olmaya, kasıb olasan,
Zəhmətkeş biri tək sezən olmasın.

Dövlətin yolunda canın qoyasan,
Gecələr yuxu yox, gozün oyasan,
Yeməyib gün ərzi,ac da yatasan.
Zəhmətkeş biri tək sezən olmasın.

Fərhad tək qayalar çalıb-çapasan,
Yolları açmaqçın, külüng vurasan.
Susuz kəndlərinə, su da çəkəsən,
Zəhmətkeş biri tək, sezən olmasın.

Günü-günə satıb ümüd edəsən.
Tezdən oyanaraq,dua edəsən.
İşi də ailən tək, sevib seçəsən,
Zəhmətkeş biri tək,sezən olmasın.

Bir quru çöpü də sənə qıymasın.,
Yaxınlıq edəsən,sirdaş olmasın.
Bu geniş dünyada boş yer qoymadan,
Zəhmətkeş biri tək,sezən olmasın.

***2021***

## HAQQLI VƏ HAQSIZ

Haqqı,ədaləti çəkib kənarə,
Haqsızı qolundan tutub qaldırır.
Haqq özün dağıdır sübut gətirir,
Haqsız yalanlarla,özün ucaldır.

Kənardan baxanlar,gəmli baxışla,
Seyr edə bunları,bu mənzərəni.
Söyləyir nə vaxtsa ədalət gəlib,
Haqsıza sübutu edər mədəni.

Hər şey zaman istər, səbr eylə deyər.
Vaxt gələr haqqını tələb  də edər.
Haqqdız bu müddətdə, haqdızlığını,
Anlayar bəlkə də etiraf edər.

*2024*

## BİZDƏDİ

Gözəllik lətafət görən gözdədir.
Ən gözəl dalğalar bax dənizdədir.
Küləyin,tufanın yeri yurdu yox,
Dünən sizdə olan,bu gün bizdədir.

Ən gözəl musiqi, vətən adında,
Bayrağın gözəli odlar yurdunda.
Xalqıma  toy-düyün, şadlıq yaraşır,
Burda mənası var yanan odun da.

Tələsmə gəlirəm səni görməyə,
O qulac saçların özüm hörməyə.
Musiqi çalınır gizli deyildir,
Həmin musiqiylə birgə süzməyə.

*2020*

## SÖZÜN VARSA

Gözəllik tutub gözünü,
Tapa bilmirsən özünü.
Boşboğazların sözünü,
Alma vecə nə deyim.?

Gecə-gündüz ağladım,
Gözlərimi bağladım.
Sözlərinlə dağlandım,
Alma vecə,nə deyim.?

Mən axtardım aradım.
Hər işinə yaradım.
Həyəcandan boğuldum,
Alma vecə nə deyim.?

***2020***



# DURUCAYA QAR YAĞIR

## NURA BOYANSIN

Qəlbimdə yazdığım şeir,bir soraq,
Kəsək qələm oldu,torpaqsa varaq.
Tozanaq qaldırdı oda bir sayaq,
Küləklər sovurdu, arzumu mənim.

Parçalandı qəlbim,içim yox oldu,
Simalar dəyişdi,bənizlər soldu.
Sevinci aradım, o da yox oldu,
Küləklər sovurdu, arzumu mənim.

Xəyal qanadında, uçdum hey uçdum,
Buludu tutmaqçın əlimi açdım.
Qanadlı quş olub, qanad da çaldım,
Küləklər sovurdu, azumu mənim.

Ümüd qığılcımı bir an parladı.
Yandı,işıq saçdı,nura boyandı.
İstədim boylanım,o da bulandı,
Küləklər sovurdu,arzumu mənim.

***2021***

## QƏM YUVA SALMA

Hərdən əllərimi qaldırıb göyə,
Deyəm ey allahım ağlımı alma.
Gördüyüm haqsızlıq,o həqiqətlər,
Çıx artıq qəlbimdən qəm,yuva salma.!

İnsan ağrı-acı nə qədər çəkər,
Nə qədər,dərd əkər,qəm yetişdirər.?

Yığdığım məhsul da,yalnız qəm kədər,
Çıx artıq qəlbimdən,qəm,yuva salma.!

Həyatda bir ömür yaşamaq üçün,
Pissimist olduğun,unutmaq olmur.
Büsbütün optimist yaşamaq üçün,
Çıx artıq qəlbimdən, qəm yuva salma.

***2024***

## DÜŞÜNCƏMLƏ

Sən düz seçməmisən həyat yolunu,
Axsaya həyat da,gedir yolunu.
Nə irəli gedib arzularına,
Nə də geri qalıb xəyallarına,
Mühütün ən ağır əzabıarına,
Sahib çıxa bilmir,kordu bu həyat
Dözməyib nəhayət,məhv olur həyat.

Axtarma haqqını səni məhv edər.
Zalımlar yer alıb,boşluq o qədər.
Gücünü göstərmə,qol gücdən düşər,
Sınan bir zamandı,ölübdü dəyər.

O qədər kasıbsan,üzübdü kədər
Yığıb köç külfətin,dəyməsin zərər.
Yaşa Allah verən ömrün nə qədər,
Əlacsız yerlərə soxma başını.
Bu cavan canın da getməsin hədər.

***2022***

## SƏMİMİYYƏTİMİZ

Vücudu»heyvana»bənzər varlının.
Dallnca «sürünür»cəmiyyətimiz.
Nə var ki, vəzifə sahibidi o,
Qorxmur ki,azalar ol hörmətimiz.
Amma düşünmür ki, yaltaqlığından,
Azalar kütlə və kəmiyyətimiz.
Nə olsun dünyanı fəth eləyirlər,
Dəyişiklik ki, yoxdur vücudlarında.
Siçovul nahaqdı gəmiricilikdə,
Maşaallah oxşamır keyfiyyətiniz.
Axı heç yaraşmır millətimizə,
Arlı-abırlıdı mintalitetimiz.

***2024***

## NƏVƏLƏRİM ƏSKƏRDİ



Alınan torpaqlarda, bir nəvəm keşik çəkir,
Biri karantindədi, hazırlığını keçir.
Əskərlik bir məktəbdi, qürurla dolub qəlbim.
Sağ salamat qayıdın, nəvələr fəxrim mənim.

Düşmən nə karədir ki, yaddaşda saxlayın siz.
Torpaq dədə babadan, keşiyində durun siz.
Qarabağ,İrəvan da,olub bizim qalacaq.
Azərbaycan əskərin görən kimi qaçacaq.

Çalış nümunəvi ol,səhv buraxma həyatda.
Qəhrəman bir əskər ol,göstər özün hər anda.
Geri qalma heç kimdən,göstər sən hünərini.
Məzuniyyət verəndə,gətir tərifnaməni.

Əskər adı ağırdır, onu doğrultmalısan.
Səndən sonra gedənə,nümunə olmalısan.
Mənim dəyərli balam,çalış Vətəni yaşat,
Nümunəvi bir zabit,şəcərəni də ucalt.

***2024***

## HEÇ NƏ GƏLMİR ƏLİMDƏN

Dərdim böyük arama,
Toxunma paralama.
Yaramı qurdalama,
Vurulmuşam sinəmdən,
Heç nə gəlmir əlimdən.

Həyat çox qəribəsən.
Niyə belə edirsən.?
Taleylə oynayırsan,
Baltalandım kökümdən,
Heç nə gəlmir əlimdən.

Oynadı dağ yerindən,
laxladı taxt dibindən.
Sözümün lap kökündən,

Vuruldum can evimdən,
Heç nə gəlmir əlimdən.

***2024***

## HƏSRƏTDƏN

Getdi bahar gəldi qış,
Soyudu könüllər də.
Qan da damarda dondu,
O sevgi məhəbbət də.
Bircə gözlər baxırdı,
Həsrət ilə,atəşlə.
Nəsə demək istədi,
Dondu dili,ağız da.
Yumdu gözün əbədi.
Ümüdləri qırıldı.
Şirin-şirin öpüşlər,
Elə dodaqda qaldı.

***2022***

## QUCASAN DÜNYA

Gəzəsən hər yeri itirdiyini,
Axtarıb tapasan uyasan dünya.
Arzular çin olsun,üzsün sularda,
Qəlbin xoş anların duyasan dünya.

Baş vurub sulara baş-ayaq kimi,
Yatasan dibində daş-qaya kimi.
Qalxanda göylərə,qartal qanadla,
Əlləri çatmasın sənə a dünya.

Olmasın qan-qada,olsun əminlik.
Hökm etsin azadlıq hegemon kimi.
Can deyib yaraya, məlhəm qoyaraq,
Açsın qollarını əzizin kimi.
Ən əziz sanaraq,qucasan dünya,
Hər şeydən ucasan, ucasan dünya.

***2022***

## SIXMAYIN MƏNİ

Qocallq şərəfdi,
Cavanlıq xəyal.
Elə gəziş dolan,
Gəlməsin zaval.

Canını sən qoru,
Ağlıma dəymə.
Çox fikir eyləyib,
Belimi əymə.

Başının üstündə
Xoşbəxtlik quşu.
Qəlbin də sevinsin,
Olmasın suçu.

Düşünmə kimsəyə,
Möhtac olaram.
Qocalıb qüvvədən,
düşüb solaram.

Zehnim ürəyim də,
Cavandı hələ.
Yazıb yaradıram,
Qurmayın tələ.

Həyat yollarında
hələ ki, mənim.
Təbim tükənməyib,
Sıxmayın məni.

***2024***

## SALAM ALLAHIM

Sən ey bu dünyanı qurub,yaradan,
Baş əyib qarşında şəst ilə durram.
Qıyma sən o əlsiz,ayaqsızlara,
Nə olar sən qıy həyasızlara.

Sıxmasın qəlbini sıxıntıların,
Onlar da yaşasın, insan tək barı.
Doyunca dincəlsin, doyunca yesin,
Sənə də sidq ilə səcdələr etsin.

Soyuq qış ayıdır,qarlı sazaqlı,
Qazanan yeri yox,gedən yeri yox.
Ölməsin acından,ruzusun yetir,
Ümüdsüz qəlblərə ümüdlər gətir.

***2017***

## HƏ DEYƏR..?

Sən mənim gözümdə uca bir dağsan,
O dağı fəth etmək, heç mümkün deyil.
O dağlar,yamaclar sirr dağarcığı,
Bura gələnlərin görüş yeridir.

Burda çiçək bitir, yemşan da bitir.
Burda moruq da var, itburnu bitir.

Hər meyvə bir sevgi mücəssəməsi,
Hər sevən ürək də, bir tarixçədir.

Doyunca dadırlar o meyvələrdən,
Çılğın unudulmaz məhəbbət ilə.
Açaraq qəlbini bu yamaclara,
Əzablı dərdini heysiyyətiylə.

Atalar deyirki,dərdin olarsa,
Röyadan oyanıb sən durarsansa.
Söyləmə yuxunu heç bir kimsəyə,
Söylə öz yuxumu suya,çiçəyə.

Axar sular axıb,sirri dağıdar,
Əsən yellər ləçəyimi qoparar.
Pis yuxular gedər, elçilər gələr,
Gözəl qız da elçilərə hə deyər.

***2017***

## DURUCAYA QAR YAĞIR

Durucaya bir qar yağır,
Desəm sənə inanmazsan.
Gözlərinlə sən görməsən,
Deyənlərə inanmazsan.
Durammadım getdim ora.
Keçərək bütün yolları,
Aşdım sıldırım dağları.
Gözlərimə inanmadım.
Artıq çatdım el-obama,
Baxdım sağıma-soluma.

Ətirli bir meh gəlirdi,
İnanmadım gözlərimə.
Dağların başı qar idi,
Yamacları düm ağ idi.
Oturmuşdu bütün kollar,
Ağappaqdı keçid-yollar.
Oynayırdılar uşaqlar,
Qartopuyla topa-topa.
Dayanmadan yağırdı qar,
Üstümqüzə lopa-lopa.
Durucanı bürümüşdü,
Dağ yamacı düm ağappaq,
Qar qızı da yapmışdılar,
Yamacda qardan yadigar.

***2018***

## KABAB OLMASIN

Sənin varlığında lal olub dilim,
Niyə sən bu qədər,gözəlsən gülüm.?
Mən necə söyləyim,mən necə deyim,
O incə qəlbinə söz toxunmasın.?

Eşqin məhəbbətin sinəmi dəlib,
Qəlbimi titrədib muma döndərib.
Közünü ay gözəl necə azaldım,
Qəlbim od tutanda,kabab olmasın.?

***2017***

## ACI DURUM

Hər acı durumun bir təsiri var
Cəmləşsə acılar, gör nələr olar.?
Deyirdi böyüklər bizdən əvvəllər,
İndi qarışıbdı aləm-aləmə,
Necə də dözürük biz bu dərd qəmə.?

İçimizdə ermənінin niyyəti,
Çölümüzdə rus çarının xisləti.
Sərhədlərdə qarışıqlıq söhbəti,
Gör nə günə saldı bu cəmiyyəti.?

İki dövlət, bir millətik deyirik,
Biz ömürlük bir qardaşıq deyirik.
Mübuharibə fəsadları bir yandan,
Həm zəlzələ fəsadları bir yandan.
Ümüdümüz  qırılmasın deyirik,
Təbrizimiz darda qalıb yetmirik.

Yox,yox olmaz belə baxış düşüncə,
Düşmənlərə əyilməyək, əyincə,
Saf saxlayın qüruru da ölüncə,
Bu dünyada əzilməyək susmayaq,
Qalibiyyət bizim olub hayqıraq.!
Gözəl günlər olub yenə olacaq !

Birliyimiz alınacaq bilirik,
İnam böyük birləşərik deyirik.
Basılmazdı Turanımın əməyi,
Parlayacaq türkümün gələcəyi.!

Ümüdümüz var Allaha bağlıyıq,
O Qurana dualara bağlıyıq
Türkün Turan birliyini sevirik,
Əməlimiz, yolumuzla gedirik.

Qanı qanımıza qarışdı bir vaxt,
Canı canımıza qarışdı bir vaxt.
Adı soyadları qarışdı bir vaxt,
Bəsdi daha ayılmışıq ayığıq,
Biz sərnişin, biz sizdən də sayığıq.

***2023***

## BİR DAĞSAN

Sevinc gəldi həyata,gəlişin, gülüşünlə,
Ölümün bir dərd oldu,qəm qüssə ailənlə.
Ağlamağa heyi yox, dəsmal da yaş, qurumur,
Ürəklərdə qəm qüssə,gözlərdən yaşlar damır.
Ölməmisən sən sağsan,ürəklərdə bir dağsan,
Tərk etsəndə bizləri,unutmarıq sizləri.

***2024***

## SIXMA MƏNİ

Vurunma dövlətin naz nemətinə,
Həsəd apar hər vaxt saz  sənətinə.
Dünyanın varına, mal-dövlətinə,
Uyma bir kimsənin səxavətinə.

Dünyanı cənginə alıb «məhəbbət»,
Heç zaman toplama lazımsız sərvət.
Kini-küdurəti başına yığma,
Gözünü yox eylə,əlini sıxma.

Özgə fikiriylə oturub durma,
Həmişə özün ol,özündən çıxma.

***2024***

## ÖZÜ BİR QƏBAHƏTDİR

Hər qaranlıq gecənin,
İşıqlı gündüzü var.
Asi olma həyatdan,
Allahın bilgisi var.

Verdiyi bəlalardan,
Qurtula bilməzsən sən.
Axirətdə cavabdan,
Heç vaxt qaça bilməzsən.

Düz düşün rahat yaşa,
Asan ver ömrü başa.
Kimini Allah bəyənir,
Sima hüsni-camalla.?

Qaldır mübarək əlləri,
Dua eylə kamalla.
De səni çox sevirəm,
Nə qədər dərd versən də.

Allah verib ruzunu,
Əlindədi var,dövlət.
Allahına qarşı çıxma,
O böyük bir qəbahət.

***2024***

## XƏBİS

«Bu dünyanı tutub duran,»
Nə eyləmək fikrindəsən.?
Ev yıxmaqdı sənin işin,
Niyə belə göynəyirsən.?

Alışdırma, qarışdırma,
Çalış düyünləri aç sən.
Pislik hər an etmək olar,
Yaxşılığı unutma sən.!

İlan kimi qovrulursan,
İşin düşən səmtlərdə sən.
Yaxşılıq əlindən gəlməz,
Nə qədər xəbissən  sən.?

Vaxt gələcək bu durğunluq,
Nəhayətdə dirçələcək.
Ürəklərdə olan kinlər,
Buz qatı tək əriyəcək.

Onda görüm düşüncələr,
Hara necə səpiləcək.?
Bədəndəki əzaların,
Yeddi yerdən gəriləcək.

***2024***

## GETSİN GƏLMƏSİN

Sevinsin, şadlansın,gülsün ürəklər,
Deyilsin dillərdə bütün diləklər.
Ağrılı qəlblərdə acılı dərdlər,
Şaqraq gülüşlərlə getsin gəlməsin.

Yaralı qəlblərdən çıxan nalələr,
Özündən,özgədən,deyilən sözlər.
Vətən dərdimizi,unudan bizlər,
Özgə dərdlər ilə,getsin gəlməsin.

İnsan həyatını sındıra bilər,
Sevinər,qəmlənər, həyatdan küsər.
Özgə dərdlərinə çox sevinənlər,
Qoysun sevincini, getsin gəlməsin.

Bir sevgi qalıbdır çaydan o tayda,
Günəş batdığı an,sevinər ay da.
Mən necə sevinim,sevgim ah- vayda,
Sevgisi puç olan getsin gəlməsin.

***2018***

## BİLMİRƏM AXI.?

Mənə gəmi verin keçim o taya,
Ləpələr çırpınır,səslənir qaya.
O qədər gözəl var,gəlmirlər saya,
Mən sənsiz yaşaya bilmərəm daha.

Gecəm gündüz olub,uya bilmirəm,
Mən sənsiz özümü duya bilmirəm.

Dərdimi heç kimə deyə bilmirəm,
Mən sənsiz yaşaya bilmirəm daha.

Saxladın sirrini açmadın mənə,
Duyğulu qəlbinlə,söylə dərdin nə.?
Eyləmə sən bəyan, gəlib-gedənə,
Mən sənsiz yaşaya bilmirəm daha.

Qohum-qardaş gətiriblər qoyunu,
El-aləm tanıyır,kökün-soyunu.
Gəl nişan eylə sən,həm də toyunu,
Mən sənsiz yaşaya bilmirəm daha.

***2020***

## DƏRDİN AT YAŞA

Tamrım sevincini,kədəri,qəmi
Analıq hissini,bəxş edib ona.
Sarılsa xəstəlik,incə ruhuna,
Məlhəmin özündə axtaran ana.

Yatanda bir gözü qıpıq yatacaq,
Gizlicə dərdinə o ağlayacaq.
Sübhədək yatmayın ayıq qalacaq,
Məlhəmin özündə axtaran ana.

Bir gün ayırdılar sevinc yaşasın,
Qəmdən uzaqlaşıb,könlünü açsın.
Olmazmı kədərin daşını atsın,
Məlhəmin özündə axtaran ana.

Əziz analarım,canlarım mənim,
Hər dərdi özündə gəzdirənlərim.

Unudun əzabı,dərdi də atın,
Məlhəmin özündə axtaran ana.

***2022***

## SALAM OLSUN

Dostlar salamlayıram,
Sübh-sabahlı günümü.
Üzümüzə açılan,
Günəşimin nurunu.

Allah nəsib eyləsin,
Yeməyimi ruzumu.
Dərdlərə dərman olan,
Bu havamı suyumu.

Bir də ən böyük arzum,
Sən eşidən bilənsən,
Hər şeyi də görənsən.

Naümüd olanlara,
Ac qalan insanlara.
Şəhid ailələrinə,
Qaziləri unutma.

Bu müqəddəs aylarda,
Düşmən ilə üz-üzə,
Sərhəddə keşik çəkən,
Əskərləri unutma.

***2023***

## YÜKLƏNDİ TALEYİM

***(Qardaşıma)***

Kəsdi nəfəsimi ölüm xəbərin,
Qurudu göz yaşım,artdı qədərim.
Ümüd çırağımdın,söndürüb getdin,
Sanki partlayacaq ürəyim mənim.

Qurudu dilim də,bu beynim mənim,
Mən söz tapmayıram,qırılıb qəlbim.
Bəxtsiz taleyimlə barışmışam mən,
Yüklədin,yükümü artırdın qəmim.

***04.08.2024 (ölüm günü)***

## RUH

Ruhun vəzifəsidi çıxdımı o cəsəddən,
Çalışar uzaqlaşsın halallıq alsın səndən.
Axtaracaq vücudu olmuş olsa genindən,
Qaynaylb qarışacaq  yerləşdiyi o yerdən.
Planların quracaq onu razı salacaq,
Ruh yerləşsə bədəndə,yenidən can atacaq.
Nədəndi canlanacaq,damarı tutulanda,
Başlayır onda həyat,ünsiyyət qurulanda.

***2024***

## DƏRDİMİN ÜSTÜNƏ  ELƏ DƏRD GƏLİR

Niyə dərdi olan danışır dərddən,
Yaxşıdan danışa bilməyir insan?
Sanki yük azalır qəlbin boşalt sən,

Azaldıqca dərdi,halına yansan,
Ayrıla bilməz o,kədər qəmindən.

Elə bil bu xalqın başının üstə,
Əcayib bir dəstə qara quş uçur.
Deyirsən qurtuldum bəladan,dərddən,
Əksinə dərd üstə yeni dərd qonur.
Ayrıla bilmirsən o dərdlərindən.

Sonra da büs-bütün düşünə gəzə,
Bu nədir ay Allah dərdlərim bitmir.
Az idi çaqqallar,hürən köpəklər,
Qurd da basır səni yeni dərd gəlir.
Ayrıla bilmirsən nə dərddən,qəmdən.

Nə qədər səbrin var,rahatlığın var.
Səbri tükəndirmə,dərdin azalt sən.
Çalışqan insanlar, heç vaxt uduzmur.
Əlləşir yapışır xeyirli işdən,
Yoxsa ayrılmaz o nə dərddən, qəmdən

***2024***

## ÇƏLİK

Birdən birə qocalır,
Yavaş-yavaş düşürəm.
Ahıllıq gözəl şeydir,
Heyif ki, qocalıram.
Daha nə eyləyim mən.
Özümə güvənirəm.
Əyilirəm dururam,
Çəliklə bölüşürəm.
Söykənəndə mən ona,

Bax onda yeriyirən.
Ver əlini tərpənək,
Yaman zəifləmişəm.
Dərd qəmimiz azalsın,
Pis aura yox olsun.
Bizləri sevməyənlər,
Nəticəni çıxarsın.
Gəzək bütün hər yanı,
Qoy kefimiz durulsun.
Dəyərli insanlar da,
Qoy yol-yolçumuz olsun.

***2024***

## ÜMMAN

Dəniz ləpələri sanki küsübdü,
Nə külək görünür,nə də dalğalar.
Sanki qısqanclıq var,ləpələrində,
Heç kimi sezməyir,dəniz böyründə.

Sakit bir meh əsir,bədən üşüyür.
Köhnə xatirələr yadıma düşür.
Gözlər də qıyılır,qəlbim büzüşür,
Qəribə baxışla baxır adama.

***2024***

## SÖZ ÖNDÜ

Sabunların sabunusan,köpüksən,
Çörək bişən təndirimdə körüksən.
Qapılarda sən bir hürən köpəksən,
Baxma gendən tərs-tərs mənə arkadaş,
Çox ayıq ol atılmasın sənə daş.

Arx dediyin suları nəql edəndi,
Nə töksələr ora,axıb gedəndi.
Dərdlərindən xəbər tutmaz dönəndi,
Özün elə taleyinlə get savaş.
Çox ayıq ol atılmasın sənə daş,

Çox görmüsən özgə arxa axanlar.
Yoldan ötən gözəllərə baxanlar.
Bir parayçın balağ altda yatanlar,
Sürün-sürün arxaya gəl sən yavaş,
Çox ayıq ol atılmasın sənə daş.

Gec deyil ki, mövqeyinə dönəsən,
Yenə nə vaxt istəsən dincələsən.
Çox yırtılmış şalvar var ki, tikəsən,
Bala-bala sürünəsən a qardaş,
Çox ayıq ol atılmasın sənə daş.

***2022***

## NƏSİHƏT

Dünyaya elmlə tanıt özünü ,
Dəyər ver dostuna,əzmə közünü.
Dinləsə kiçiklə,böyük sözünü,
Dəyəri versələr dəyərində qal.

Atanı ata tək,tanıt elinə,
Ananı ana tək,tanıt gəlinə.
Qardaşlar qayındı,bacı gəlinə,
Dəyəri versələr,dəyərində qal.

Oğula uşağa tanıt özünü,
Elə dəyər ver ki, kövrəlt gözünü.

Xırda bir şey üçün döymə dizini,
Dəyəri versələr dəyərində qal.

Axıtma hərzayı gözün yaşını,
Ağrıtma mənasız yerə başını.
Bəzəsən simanda gözün-qaşını,
Dəyəri versələr dəyərində gal.

Qalxsan uca dağa ucalar başın,
Mənalı ömrünlə yazılar daşın.
Dəymə sən özgəyə büzülər qaşın,
Dəyəri versələr, dəyərində qal.

***2022***

## BÜTÜN EL-OBA NURA BOYANSIN

Bir baxış insana doğma da olar,
Sinədə yer edib,yara da bağlar.
Bir baxış var səni göyə qaldırar,
O səni bir anda,yerə də çırpar.

Nə xoş həyatında bir izin qalsın,
Sevincin yerlərə,göyə sığmasın.
Göydə qanad çalsın,həm pərvazlansın,
Amma sirrlərini yad anlamasın.

Toxunsun buludlar,biri-biriylə,
İldırım çaxaraq,yağışlar yağsın.
Yağışın ətri də payızdakı tək,
Qoxusun hər yana,hər yana yaysın.

Arada məcazi xəyalların da,
Sevinsin qəminə, verməsin aman.

Doğulsun həqiqət,yox olsun yalan,
Çırpınsın qəlbimiz elə o zaman.

Od-ocaq qalansın,ürək qızınsın,
O vaxt  qəlbimiz də,alışıb yansın.
İşıq saçsın hər yan,bir mayak kimi
Bütün el-obamız nura boyansın.

***2023***

## DƏRDİN AT YAŞA

Tamrım sevincini,kədəri,qəmi
Analıq hissini,bəxş edib ona.
Sarılsa xəstəlik,incə ruhuna,
Məlhəmin özündə axtaran ana.

Yatanda bir gözü qıpıq yatacaq,
Gizlicə dərdinə o ağlayacaq.
Sübhədək yatmayıb ayıq qalacaq,
Məlhəmin özündə axtaran ana.

Bir gün ayırdılar sevinc yaşasın,
Qəmdən uzaqlaşıb,könlünü açsın.
Olmazmı kədərin daşını atsın,?
Məlhəmin özündə axtaran ana.?

Əziz analarım,canlarım mənim,
Hər dərdi özündə gəzdirənlərim.
Unudun əzabı,dərdi də atın.
Məlhəmin özündə axtaran ana.

***2022***

## YÜKLƏNDİ TALEYİM

*(Qardaşıma)*

Kəsdi nəfəsimi ölüm xəbərin,
Qurudu göz yaşım,artdı qədərim.
Ümüd çırağımdın,söndürüb getdin,
Sanki partlayacaq ürəyim mənim.

Qurudu dilim də,bu beynim mənim,
Mən söz tapmayıram,qırılıb qəlbim.
Bəxtsiz taleyimlə barışmışam mən,
Yüklədin,yükümü artırdın qəmim.

***04.08.2024 (ölüm günü)***

## RUHLARI ŞAD OLSUN

Dünya yenilənir insan dəyişir.
«Axirət qapısın açıb gözləyir».
Gözündə cavanlıq, qocalıb getdi.

Son an sıxır səni,yaşamaq eşqi,
Sanki anla artır,amanın vermir.
Ümüdlər arzular yeniləndikcə,
Zamanın da bitir gümanın vermir.

Sınır qol-qanadın,bir budaq kimi,
Nə qədər qorunsan,yaş sözün deyir.
Soyuyur mühüt də,gözlər qaralır,
«Məhv olur təbiət,vücud da solur.

O an düşünürsən,kaşki,kaşkilər,
Bircə aman verə nələr edərdim.
Yenidən çırmayıb,mən qollarımı,
Ən çətin işlərə,hər an gedərdim.

Ruhları şad olsun,qoy şəhidlərin,
Tapılsın yeri itkin əskərlərin.
Qurusun göz yaşı,qız-gəlinlərin,
Allah səbrin versin valideynlərin.

***2020***

## SORUŞ

Yaşamaq nə qədər şirindir bilsən,
Onu sağlamlığı itəndən soruş.
Dərmanın dadının acı olduğun,
Onu hər bir  anda içəndən soruş.

İynənin ağrısın batandan sonra,
Həyatın ləzzətin dadandan sonra.
Günlərin sayının bitəndən sonra,
Sənin can qədrini biləndən soruş.

Fürsət vermə nə həkimə, ustaya,
Zərgərin də,həkimin də özün ol.
Dərdinə bir məlhəm, axtaranı ol,
Sənə dərd verənin özündən soruş.

***2020***

## SƏN NƏ QƏRİBƏSƏN.?

***(Biganəyə)***

İstədiyin yar idi yetirdi pərvərdigar.
Nədir bu ailəyə,yaşatdığın ruzigar.?
Sevmisən, sevilmisən,özünə bənd etmisən,
Allah bərəkət versin, yaxşı dönüş etmisən.

Atlb oğul-uşağı harada keflənmisən,
Bu ailə sənindi,niyə tərk eyləmisən.?
Ruzunu verib Allah,niyə gətirməmisən.
Bu nə həyat nə gündü, gözdən də gətirmisən.!

Topla ağlın başına,qırma sən təməlini,
Buraxma öz başına, düşün sən əməlini.
Gəl vurma korluğuna,qıyma ki, itirəsən,
Ailə müqəddəsdi, buraxma itirəsən.
Atalığını et sən,qoy doyunca görsünlər,
Özgəyə ümüd olma,pis yola düşməsinlər.

***2024***

## GÜLÜŞ

Gülüş var simaya yaraşıq verir,
Gülüş var gülüşlə səni öldürür.
Gülüş var qəlbinin kinin gizlədir.
Gülüş var ömürdən silib götürür.

Gülüş növlərinin sayı bilinməz,
Gülüş ürəklərdən heç vaxt silinməz.
Gülüş ömrünüzdə bitib tükənməz,
Gülüş var ömürdən kəsib aparır.

Gülüş var sevinci bölüb bitirməz
Gülüş də var simanı açar bilinməz.
Gülün ki,simanız qoy işıq saçsın.
Gülüş kədəri də alıb aparsın.

***2022***

## BİR AZ ÇOX VER

***(Acgöz)***

Dağlarının başı çəndi.
Buludların daim nəmdi.
Xərcləməkdə bir az kəmdi,
Allah buna bir az çox ver.
Nə yeməkdən gözü doyur,
Nə içməkdən gözü doyur.
Yeyib-içməkdi xobbisi,
Allah buna bir az çox ver.

Qısadı uzanmır əli,
Nə ürəkdə vardır yeri.
Söz-söhbətdə qalıb geri,
Gözü doysun,nəbzi sönsün,
Allah buna bir az çox ver.

***2022***

## NİYƏ BELƏ ETDİN SƏN

Elin gözü tərəzidi,
Bu nə idi mərəz idi.?
Mənə olan çərəz idi,
Niyə belə etdin sən.?

Dərd əlindən dərd ağladım,
Zamanımdan «dərz» bağladım.
Qəmimdən tez-tez ağladım,
Niyə belə etdin sən?

Sevincimin açarıydın,
Qovuşmamış qonaq idin.
Simama nur saçan idin,
Niyə belə etdin sən.?

Dərd üstünə dərd gətirdin,
Sevincə kədər gətirdin.
Hər nə varsa sən itirdin,
Sevincimi sən bitirdin.
Niyə belə etdin sən.?

***2024***

## NOVRUZUM

Gəlişin qəlbimə bir işlq saçır,
Ürəklər döyünür bu sevinc ilə.
Həyatın ən acı xatirələri,
Unudulur novruzun qədəmləriylə.

Bahar gəlir Vətənimə elimə.
Xoş günlər paylaşsın mərd millətimə.
Ana-bacı  gör necə də bəzənib,
El-obada bayram ruhu yüksəlib.

Çiçək açır elimin hər yerində,
Qucaq-qucaq sevənlərin əlində.
Qoxlasın onu şəhid anası,
Qopalmasın qaysaqlanmış yarası.

Dağdan axıb gələn sular durulur,
Hündür zirvələrdə,tonqallar yanır.
Cavanlar yüyürüb oddan tullanır,
Sevinc ərşə qalxıb, bax nəşələnir.

Novruz qarşılanır Azərbaycanda,
Sevinc ilə qeyd olunur Xaçmazda.
Bahar qızı qədəmlərin mübarək,
Vağzalı çalınsın eldə obada.

***2022***

## YUXUDA

Birden zəng etdi mənə,
Tanımadığım biri.
Tanış olmaq istədi,
Söylədi səhər biri.

Çox qəribə bir yuxu,
Gördüm dedi bu səhər.
İnanmağım gəlməyir,
Tanımadığım nəfər.

Yol keçirdim körpüdən,
Dar-darısqal döngələr.
Boğulurdum sanki mən,
Ürəyimdə qəm-kədər.

Elə bir yuxu idi,
Toxunuşdan ayıldım.
Gözlərinə baxanda,
Elə orda bayıldım.

Bu nə sima..gözəllik..
Valeh elədi məni.
Qəlbimdəki qəm kədər,
O an tərk etdi məni.

*2024*

## KEÇMİŞİ UNUDANIN GƏLƏCƏYİ OLMUR

O dövrümün dumanı,
Niyə çəkilmirsən sən?
Bu zaman kəsiyində,
Unutmuram səni mən!

O gənclik illərimi,
Xatırlatdı səninlə.
Unutmursan səndəmi,
Xatirəni mənimlə?

O bayramlar, o toylar,
Sanki bir yuxu idi,
Əl qaldırıb oynayan,
Bu günki tək çox idi.

Gecələr yatmayırdıq,
Kitab düşməzdi əldən.
O vaxt oxuyardılar,
Sevgi düşməzdi dildən.

Sanki qorxu yaranıb,
Yaddaşlar silinibdir.
Məhəbbətdən yazan da,
Saxtadır,  çəkinibdir.

Bu gün sevgi çoxalıb,
Sevənlər çox az qalıb.
Çoxu yalan üstündə,
Saxta ailə qurub.

Bir himə bənddi sanki,
Atıb hər şeyi getsin,
Bərabərlikdir deyib,
Ailəni tərk etsin.
Ayılın gənclərimiz,
Unudun acgözlüyü.
Gözünüz özünüzdə,
Atın o şorgözlüyü.

Hər şey öz əlinizdə,
Belədən belə edin.
Tər-təmiz ailəylə,
Çoxlu istirahət edin.

## DARMAYED KİŞİLƏR, NAZLI XANIMLAR

Bir kəlmə söyləyim,dinləyin bir az.
Anlada bilsəydim, məncə pis olmaz.
Kişilər bir olmur, atam balası,
Biri zəhmətkeşdi,digərisə «qaz».

Çırparaq özünü dağlara,daşa,
Asan qazanc üçün gəzər dolaşa,
Canını qoruyan kişilər ki,var,
Gəzər axşamacan,veyiltək boşa.

Nə ipə yatarlar,nə də ki, sapa.
Ğımışa günlərin vururlar başa,

Tanrı beləsin də, yaradıb vallah,
Olmasa keçirlər, qopa bir başa.

Kişini kişi tək, yaradıb allah,
Qadını,qadın tək,yaşatmaq üçün.
Bilirəm nə üçün «boşboğazdılar,»,
Çulların sulardan çıxarmaq  üçün.

Bunu çox qadınlar,bilir və susur.
Qoruyub saxlayır mintaliteti.
Bir qisim qadınlar, zəhmətsiz gəlir,
Gözləyir, qoruyur, öz seluyetin.

## GÖZ YAŞIM MƏNİM

Ağlama mən də sənin qadanı alım.
Dərdimin həyanı, göz yaşım mənim.
Qoyma çiçək kimi saralım solum,
Ruhumun üryanı, göz yaşım mənim.

Elə biganəyəm bəzən özümə,
Bəzən alışıram özgə közünə.
Çarə axtarıram özüm-özümə,
Ey məni duyanım, göz yaşım mənim.

Ürəyim şəffafdır, dürrdür, incidir,
Haqsızlıq görəndə küsür inciyir.
O elə kövrəkdir, elə incədir,
Mənim sirrli dünyam,göz yaşım mənim.

Qalmayıb taqətim üzülür canım,
Allahdır ümüdüm ərkim inamım.

Sevənlər desə də nazlı ceyranım,
Səmsən tək gümanım, göz yaşım mənim.

*2024*

## SOYUTMASIN  YAQAN O QAR

Sevgimə bir qar yağıb,
Üşüdür məni hərdən.
İsinmək istəyirəm,
Donuram dözəmmirəm.

İsindir bu qəlbimi,
Ərisin buz qalaqlar.
Soyuq gələn tərəfdən,
Qapansın o qapılar.

Qoy qəlbimiz isinsin,
Açılsın qanaq,qollar.
Qucaqlaşaq qol-boyun,
Soyutmasın yağan qar.

## TANRIM MƏNİM

Dar döngələr dolanbaclar adladım,
Bu yollarda həm güldüm , həm ağladım.
Sevincimlə yaraları bağladım,
Yetmiş beşi bax beləcə adladım,
İcazə ver yoluma davam edim.

*2025*

## VƏSİ YÜNGÜLLÜKDÜR

Mən dünyadan heç doymadım,
Basdıranda inciməyin.
Qəbir daşın qoymuş olsaz,
Sinəyə beton tökməyin.
Əksimi qəbir daşının,
İrəlidən şəklim çəkin.
Başdaşımın arxasına,
Bir kitab şəklin də çəkin
Ətrafına bənövşələr,
Ətirli çiçək düzərsiz.
Ziyarəti vaxt olanda,
Yada düşəndə edərsiz.
Fikir çəkmək lazım deyil
Heç kim qalmır bu dünyada,
Bir gün hər kəs tərk edəndir.
Dünyada qalan əməllər,
Bir də ki, xoş kəlmələrdir.

## VALİDEYN MƏHƏBBƏTİ

Ana bir başqadı, onun istəyin,
Ananın qədrini biləndən soruş.
Gəzsən  hər bir yeri sən qarış-qarış,
Ana xiffətini çəkəndən soruş.

Ata-ailədə böyük rolu var.
Ailə başçısı, bərəkətlidi.
Ata-ailənin əminatçısı,
Daima həyatda hərəkətlidi.

Ata bel sütunu, ana dayaqdır,
Onlara kənardan baxmayın, oğul!
Atanı, ananı incitmək olmaz,
Onlara nəvaziş gərəkdir oğul!

Atanın, ananın məhəbbətini,
Kimsə verə bilməz, sədaqətini.
Etsə də övlada səxavətini,
Bu gəldi gedərdi, deməyin  oğul!

Onların nazını çəkin siz hər vaxt,
Kəm gözlə baxmayın məhəbbətinə.
Çalışın möhübün dözün siz hər vaxt,
Əlində imkanın olanda oğul!

***2022***

## ANA DİLİN
## BİZ QORUYAQ.!

Ana Vətən,
doğma torpaq,
Tarixlərə yazılıbdı adın sənin.!
Mən qoynunda göz açmışam.!
Yaşamışam,
təhsilimi artırmışam !
Kövrəlmişəm,
ağlamışam,
həm dolmuşam,
boşalmışam.!
Vətənimə bağlanmışam.!

Düşünməyək
qonağıq biz,

bu dünyada
Düşünməyək
köçkünük var
bu həyatda.
Bərəkətli
torpaqlara
göz yummayaq,
Müalicəvi
bulaqları
biz qoruyaq.
Sağlığında
insanlara
qiymət verək.(C.Novruz)
Bir tərəfli düşünməyək,
uzaq  görənlik
eyləyək.
Düşmənlə üz-üzə durub,
Vətənə də sahib çıxaq.
Biganəlik yaraşmayır
millətimə.
Qalx ayağa,
car çəkərək söyləyək biz,
Azərbaycan Vətənimdi,
varlığımdı.
Onu qorumaq
borcumdu.!
Əlləş,
vuruş,
qurub,
yarat,
Qoy sənin də zəhmətlərin
tarixlərə bir görk olsun.!
Gözəl Vətən,gözəl xalqım

can millətim.
Ana dilini qoruyaq
nəsillərə müşdə qoyaq.
Doğranmasın ana dilim
dilim-dilim.
Nəsillərə biz paylansaq
şirinliyin.!
Ana..,
ana Vətən,
ana torpaq,.
kövrəkliyin.
Çox şirinsən.
Ey Vətənim.!
Ana dilim.!
Övladları..
o ananı,
ocağını,
Vətənini,
torpağını,
biz qoruyaq!
Yumruqları zindana da
birgə vuraq.!
Düşüncəylə
irsimizi biz qoruyaq .!
Həm savaşaq,
Həm dalaşaq,
Həm yaşadaq.!
Ana dilin biz qoruyaq.!
Ana dilin biz qoruyaq.!

# UŞAQLIQ AİLƏM

Vəzifə sahibi olan adamın,
Qapısı, bacası, dolu olardı.
Nə rüşvət verərdi, nə də alardı,
Qəlbi xeyirxahlı, dayaq olardı.
Boş olmazdı süfrəsi heç bir zaman,
Tək qalacaq bu həyatda, tək yeyən.

Kasıba, hər kəsə, çox dayaq idi,
Xeyirxahlıq, mal-dövlətdi deyərdi,
Allah yetirəndən verək, söylərdi.
Süfrəsində, çox idi əlhəm deyən,
Tək qalacaq bu həyatda, tək yeyən.

İllər ötüşdükcə, hamı böyüdü,
Oxuyan oxudu, mövqeyli oldu.
Unuduldu o ev-eşik, bərəkət,
Nə qohum axtardı, nə də ki, millət.
Övladı olduğun, tam unutdular,
Sanki mən ölmüşəm, can qurtuldular.

Bircə zəng nədi ki, salmırlar yada,
Ötüşüb hər bir şey, qan da, qada da.
Elə bil həyatdan tək mənəm gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

“Nə uşaq olmuşuq, nə də görmüşük,”
“Nə də təbiəti biz seyr etmişik.”
Burdan ora, düzülərdi süfrələr,
Oturardı süfrə yanı körpələr.

Nağıl oxuyar, lətifə deyərdim,
Mahnı oxuyardım, şeir söylərdim.
O vaxt buğlanaraq yeyib gedən sən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Nə axtarır, nə də ki, soruşurlar,
Nə qonaq gedir, nə də arayırlar,
Haram pullar yığaraq saxlayırlar.
Gözü dalda, baxa-baxa ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Molla Nəsrəddinin sözü olmasın,
Vəzifə, əbayə, hörmət olmasın,
Öküz öldü, ortaq da  ayrılmasın,
Sanki bir borc idi, aldı bayıldı.
Vəzifə axtarıb, mövqe diləyən,
Bir kimsəyə, bir loxma da verməyən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Nə hoqqan var, bu dünyada çıxar sən,
Yaxşı-pisi ayırmağı bacar sən,
Vallah axırı yox ,pis bitir bilsən.
Var-dövlət dünyada qalır, ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

Varlanıbdı, pulun yoxdu, saymayır,
İldən aydan, heç yada da salmayır,
Qohum, qardaş, məclislərdə oynayır.
Sanki yoxsan, kasıbsan, sən ay gedən,
Tək qalacaq bu həyatda, tək yeyən.

***2022***

## GƏL BUNA DÖZ

Söylə necə sevim səni?
Məndən qaçdın, ay vəfasız.
İnsafdırmı atıb məni,
Qoşdun hədər hər gün bir söz.
Belə günə qaldım yəni?
İndi yaşlı qalıbdı göz.
Tez unutdun sən dünəni,
Tutmur daha dilin də söz.
Yaman əydin, yaman məni,
Dözürsənsə gəl buna döz

## NAĞIL OLSUN

Açan hər bir sabahlar,
Günə gözəllik qatsın.
Səhər yeməkdən sonra,
Qəlbdə fərəh oyatsın.

Xam xəyallar silinsin,
Ruh canlansın bədəndə.
Gün sevgiyə bələnsin,
Canda həvəs bitəndə.

Heç axmasın göz yaşı,
Bülbüllər nəğmə desin.
Dağların bəyaz qaşı,
Parıldasın, rəqs etsin.

Vətən səmasında gün,
Zirvədə üçrəng bayraq.

Qapılarda toy-düyün,
Deyək, gülək, oynayaq.

Yuxular nağıl olsun,
Yola verək ömrü xoş.
Bizdən xatirə qalsın,
Olmasın eniş, yoxuş

## GÖRMÜŞƏM

Kölgədə, sərində səssiz yatanın,
Fağıra şər atıb ara qatanın.
Qeyrəti unudub Vətən satanın,
Yuvasın həmişə talan görmüşəm.

Ata-anasını saymayan kəsi,
Olsa da yeməyə yağlı tikəsi,
Nə adı olubdur, nə çıxıb səsi,
Sonunda mən onu nalan görmüşəm.

Vicdanı bir çürük qoza dəyməyən,
Ağsaqqal önündə basin əyməyən,
Bir kərə əyninə nimdaş geyməyən,
Adamın dilində yalan  görmüşəm.

Oğul var Vətənçün canını verən,
Qalalar ucaldıb, divarlar hörən,
Elə oğullar ki, igid, mərd, ərən,
Adını tarixdə qalan görmüşəm.

## AĞLAMA

Ağlar gördüm səni həmin otaqda,
Üzüqoylu uzanmışdın yataqda.
Göz yaşınla islanmışdı yastıq da,
Söyləmirsən bu nə haldır, nə halət,
Haqqımızda nə düşünər bu millət?

Gecə gündüz hey üzürsən özünü,
Çox islatma həsrət çəkmiş gözünü.
Toxtaq dayan, gəl, turşutma üzünü,
Azad etdik torpaqları nəhayət,
Haqqımızda nə düşünər bu millət?

Vətən deyə-deyə illərin ötüb,
Ən böyük sərvətin gəncliyin itib.
Yolunda ot nədi, qanqal da bitib,
Nə üçün o zaman etmədin cür'ət,
Haqqımızda nə düşünər bu millət?

Biləsən hər şeyin bir sonu vardır,
Qədir bilməyənə bu dünya dardır.
Tanrı hamımıza ən yaxın yardır,
Kövrəlib ağlama, göstər səxavət,
Haqqımızda nə düşünər bu millət

## QARDAŞ OLAQ

OĞLAN:
Bulaq üstə gəzən gözəl,kimi axtarırsan burda.?

GÖZƏL:
Uca boylu bir cavanı axtarıram mən burada.

OĞLAN
Nədir səni edən pərişan,
Tapmadınmı qəlb oxşayan.?

GÖZƏL:
Zəmanə o zəmanə deyil,
O qədər var çöldə veyil.

OĞLAN:
Vaxt-bivaxt burda sən ğəzmə.
Bir daha səni məni üzmə.

GÖZƏL:
Uca boylu cavanlar var,
Qəlbi dönük siması şam.
İstəyirən dərd ilə dəm,
Yoldaş ola dağıla qəm.

OĞLAN:

O məndə gəl biz dost olaq.
Deyək,gülək sirdaş olaq.
Evlənərək həmdəm olaq.
Həm Rəfiqəm, arkadaşım,
Dərd ortağım qardaş olaq.

## QOCA QURDSAN..

Neçə vaxtdır əylənirsən,gəzirsən,
Qoca qurdsan əlindən hər iş gəlir.
Şikarını kənardan izləyirsən,
Atılmaqçın məqamı gözləyirsən.
Eyləmə tərs qılıncı tərs çevirib,

O başını kötük kimi üzəsən.
Sonra qalxıb dar ağacın ipindən,
Sarıqlayıb ayağından asasan.
Qoy desinlər nə zalım,nə  tüləksən.?
Gözlənilməz hərəkətlər edirsən.?
Əsas odu ürəyin yarasını,
Bu zalımın qanı ilə yuyasan.
Görə görə gəlirik bu dünyanı,
Öləni var,qalanı var,haqlı var.
Qurtulamaz heç bir zalım cəzadan,
Onun da bir məqamı var, anı var.

## KÖVRƏLİRƏM NEYLƏYİM.?

Xatirələr qoymur məni dincəlim,
Xatirəmdə...unutmuram, neyləyim.
İllər necə keçdi,vallah bilmədim,
Yaş artdıqca... kövrəlirəm neyləyim.?

O gözlərin məzlum-məzlum baxması,
Ulduzlar tək süzgün-süzgün axması.
Ağ çörəyin yağ-bal ilə yaxması,
Yada düşür... kövrəlirəm neyləyim.?

Hər səhəri oyanaraq gəlməyin,
Bağçamızdan bir çiçəyi üzməyin.
Gözlərimə baxıb gülümsəməyin,
Çıxmır yaddan... kövrəlirəm neyləyim.?

İndi hanı çaparların...oylağın,
Gözə dəymir göstərdiyin yaylığın.
Yellədərdin əllərinlə, baxdığım,
Sevincindən...kövrəlirəm neyləyim.?

Yaz da gəldi,ağaclar çiçək açdı,
Günəş çıxdı, dağ başı işıq saçdı.
Təbiət oyandı el aləm də gül açdı,
Qocalıram...kövrəlirəm neyləyim.

# MÜNDƏRİCAT


Müəllif haqqında ..................................................................3
Daima uğurunuz olsun ..........................................................5
Emfira xanım.........................................................................5
Ön söz .................................................................................... 8
Vətən sağ olsun baba.........................................................15
Şəhid ana.. ...........................................................................16
Sənin azərbaycan ...............................................................16
Allah bütün şəhidlərə ......................................................17
Rəhmət eləsin .....................................................................17
Qəhrəman oğullarımıza ...................................................18
Şəhid və ana.........................................................................19
Vətən sağ olsun, baba ........................................................20
Həsrətlə.................................................................................22
Axır nəfəsində anayla söhbət .........................................23
Azərbaycanı qoruyaq.! .....................................................24
Şəhid nuran tapşıralanda torpağa ................................26
Bir millət iki dövlət .........................................................27
Şəhid olsam sevinərəm! ....................................................28
Fars rejimi taxtın uçsun başına .....................................29
Ay, günüm, ilim ..................................................................30
Kədərdi mənim....................................................................31
Olmasa saf məhəbbət .......................................................31
Yananım varmı.?.................................................................32
Ruhuma mənim ..................................................................33
Bu qəlbimdə payın var .....................................................33
Məni bağışla........................................................................34
Ay, günüm, ilim ..................................................................35
Sənin xəyalındayam ..........................................................36
Vuruldum.............................................................................37
Cananım ..............................................................................38
Qəlbimdə yaşayırsan .........................................................38

Sevirəm demə ........................................................ 39
Yaşla dolmasın ........................................................ 40
Görüşək ........................................................ 40
Neyləyərsən.? ........................................................ 42
Gözlər qəlbin aynasıdır ........................................................ 42
Dərdi bölüm səninlə ........................................................ 43
Unutma ........................................................ 43
Elə darıxmışam ........................................................ 44
Unutmadım dərdin alım ........................................................ 44
Cananıma vuruldum ........................................................ 45
Gözüm gözündə qalıb ........................................................ 46
Bilmirəm axı.? ........................................................ 47
Unutmaram unutsan da ........................................................ 47
Sən mənim şeirimsən ........................................................ 48
Bilmədim ........................................................ 49
Vurulmuşam ........................................................ 49
Sevgim mənim ........................................................ 50
Mən səni necə sevmişəm ........................................................ 50
Aldın ağlımı ........................................................ 51
Sözümüz söz olsa ........................................................ 53
Tikanlı qızılgül ........................................................ 54
Yaşa ana..! ........................................................ 55
Təbabət elmindən faydadan yazaq ........................................................ 56
Tapa bilmədim öğlunu ........................................................ 57
Ruhun şad olsun murad muradov ........................................................ 58
Sözümüz söz olsa ........................................................ 59
Nəsihət ........................................................ 59
Əyri-dolanbac ........................................................ 60
Bayatılar ........................................................ 61
Bayatılar ........................................................ 62
Təkəri tanrım ........................................................ 63
Bayramda ........................................................ 63
Bu cavan canın da getməsin hədər ........................................................ 65

**Dost arayar dostunu ........ 66**
**Deyimlər ........ 67**
**52 İl sonra ........ 67**
**Narkotikə aludə........ 68**
**Bilmirəm........ 69**
**Deməyin ........ 70**
**Xəbərin varmı.? ........ 70**
**Sən qapıdan çıxanda ........ 71**
**Saxlayıram........ 72**
**Bağlanırsan........ 73**
**Xəstə arzu ........ 74**
**Payız gəldi ........ 75**
**İti qovmaq  idi dərdim........ 75**
**Açmaz........ 76**
**Dərd aldı ........ 77**
**Tanımıram........ 77**
**Gözünü yuman dünyasan ........ 79**
**Bacarmadım ........ 80**
**Bezdim usandım ........ 80**
**Ayılın millət ........ 81**
**Meyvəlırin harayı........ 82**
**Yol tapmasın qəlbinə ........ 82**
**Yol tapmasın qəlbinə ........ 83**
**Dərdini söylə bilim ........ 84**
**Halba-hal  şair ........ 84**
**Səhər yanır əndamı........ 85**
**Səmimiyyət ........ 85**
**Sərxoş ........ 86**
**«Cənnət, cəhənnəm burdadı.»........ 87**
**Dinləməyə qadirəm ........ 88**
**Yoxam........ 89**
**Fikir xəritəsi........ 89**
**Göz yaşı yuyub aparır ........ 90**

Duasın ........................................ 91
Sərbirah olsun ........................................ 91
Yandım qardaş ........................................ 92
Kasıb harayım ........................................ 93
Bunun yoxdu söhbəti ........................................ 94
Bir quru çöpü də qıyan olmadı ........................................ 95
Haqqlı və haqsız ........................................ 96
Bizdədi ........................................ 96
Sözün varsa ........................................ 97
Durucaya qar yağır ........................................ 98
Nura boyansın ........................................ 99
Qəm yuva salma ........................................ 99
Düşüncəmlə ........................................ 100
Səmimiyyətimiz ........................................ 101
Nəvələrim əskərdi ........................................ 101
Heç nə gəlmir əlimdən ........................................ 102
Həsrətdən ........................................ 103
Qucasan dünya ........................................ 103
Sıxmayın məni ........................................ 104
Salam allahım ........................................ 105
Hə deyər..? ........................................ 105
Durucaya qar yağır ........................................ 106
Kabab olmasın ........................................ 107
Acı durum ........................................ 108
Bir dağsan ........................................ 109
Sıxma məni ........................................ 109
Özü bir qəbahətdir ........................................ 110
Xəbis ........................................ 111
Getsin gəlməsin ........................................ 112
Bilmirəm axı.? ........................................ 112
Dərdin at yaşa ........................................ 113
Salam olsun ........................................ 114
Yükləndi taleyim ........................................ 115

Ruh........................................................................................ 115
Dərdimin üstünə elə dərd gəlir.............................................. 115
Çəlik........................................................................................ 116
Ümman .................................................................................... 117
Söz öndü.................................................................................. 117
Nəsihət ................................................................................... 118
Bütün el-oba nura boyansın..................................................... 119
Dərdin at yaşa ......................................................................... 120
Yükləndi taleyim...................................................................... 121
Ruhları şad olsun..................................................................... 121
Soruş ........................................................................................ 122
Sən nə qəribəsən.?.................................................................. 123
Gülüş ....................................................................................... 123
Bir az çox ver .......................................................................... 124
Niyə belə etdin sən .................................................................. 124
Novruzum................................................................................ 125
Keçmişi unudanın gələcəyi olmur.............................................. 127
Darmayed kişilər, nazlı xanımlar ............................................. 128
Göz yaşım mənim..................................................................... 129
Soyutmasın yaqan o qar ........................................................... 130
Tanrım mənim ......................................................................... 130
Vəsi yüngüllükdür.................................................................... 131
Valideyn məhəbbəti .................................................................. 131
Ana dilin ................................................................................. 132
Biz qoruyaq.! ........................................................................... 132
Uşaqlıq ailəm .......................................................................... 135
Gəl buna döz ........................................................................... 137
Nağıl olsun .............................................................................. 137
Ağlama.................................................................................... 139
Qardaş olaq.............................................................................. 139
Qoca qurdsan.. ........................................................................ 140
Kövrəlirəm neyləyim.?............................................................. 141